


İrəvan-İstanbul hava reysi açılarsa

NƏLƏR BAŞ VERƏ BİLƏR?

7

Səs

№ 228 (6428) 14 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev Belçikada işgüzar səfərdədir



4

# "MEDİA" haqqında qanun layihəsi müstəqil medianın inkişafında növbəti yenilikdir



Təhlil

Bu, həm də məhz dövlətlə birlikdə güclənmək və güclü olmaq konsepsiyasıdır

12

## Tahir Budaqov: Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyində hər zaman müstəsna xidmətləri ilə yadda qalıb



"Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyində hər zaman müstəsna xidmətləri ilə yadda qalıb. Dünyada yaşayan bütün azərbaycanlılar Heydər Əliyevin əziz xatirəsini daim uca tutur. İnsanlar Ulu Öndərimizin anım günündə Fəxri xiyabana axışaraq onun xatirəsini böyük...

4




Daha 6 kənd Azərbaycana qaytarılacaq: Ərdoğan Qarabağda türk hərbçilərini aktivləşdirir

## Avropa azərbaycanlıları Brüsseldə Prezident İlham Əliyevi qarşılamağa çıxıblar




# Emin Mahmudov ilin ən yaxşı futbolçusu seçilib




16



## "Rusiya daha çox Ermənistana qıcıq olacaq"

14



Yeni İl gəlir: Otellər doludur, bəs qiymətlər və xidmətlər necədir?

15

ARAŞDIRMA

# İlham Əliyev:
## "Qarabağ" klubu Azərbaycan futbolunun flaqman komandasıdır

**Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, Bu qələbə bir daha onu göstərir ki, "Qarabağ" futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır:**

- Əziz dostlar. Əziz "Qarabağ" futbol klubunun nümayəndələri.

Sizi əldə edilmiş yeni nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. "Qarabağ" futbol klubu Azərbaycan azarkeşlərini, deyə bilərəm ki, bütün Azərbaycan xalqını bir






daha sevindirib.

Bu qələbə bir daha onu göstərir ki, "Qarabağ" futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır. Bu, birinci dəfə deyil ki, "Qarabağ" beynəlxalq yarışlarda böyük uğurlar qazanır, xalqımızı, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Bu uğurlar təsadüfi deyil. Çünki bilirəm ki, klub rəhbərliyi, məşqçi heyəti, futbolçular həm yüksək məsuliyyət, peşəkarlıq göstərirlər, eyni zamanda, müntəzəm olaraq peşəkarlığı artırmaq, daha da yaxşı nailiyyətlər əldə etmək üçün yorulmadan çalışırlar.

Əlbəttə, sirr deyil ki, "Qarabağ" futbol klubunun adı sizin üzərinizə əlavə məsuliyyət qoyur. Siz həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra Qarabağ adını uca tutursunuz, bu adı bütün Avropa futbol məkanında təbliğ edirsiniz. Bir daha demək istəyirəm, nəzərə alsaq ki, uzun illər torpaqlarımız, o cümlədən Ağdam şəhəri işğal altında idi, hər qələbə, "Qarabağ" futbol klubunun hər tarixi addımı hər bir Azərbaycan vətəndaşını sevindirirdi. Əminəm ki, növbəti mərhələdə də siz komandaya xas olan əzmkarlıq və vətənpərvərlik göstərərək xalqımızı sevindirəcəksiniz.

Avropa Konfrans Liqası turnirinin pley-off mərhələsinə çıxmaq doğrudan da böyük nailiyyətdir. Əlbəttə, biz səkkizdəbir oyuna birbaşa çıxa bilərdik, ancaq əfsuslar olsun ki, hakim ədalətsizliyi buna imkan vermədi. Mən bu sözü təsadüfən işlətmirəm: hakim səhvi yox, hakim ədalətsizliyi. Çünki bu biabırçı hadisəyə səhv demək düzgün olmaz. Eyni zamanda, bu, birinci dəfə deyil ki, "Qarabağ" futbol klubu Avropa yarışlarında belə açıq ədalətsizliklə üzləşir. Əvvəlki illərdə də dəfələrlə buna rast gəlmişik. Bu dəfə qrup mərhələsində. 2014-cü ildə həlledici oyunda son dəqiqələrdə vurulmuş təmiz qolu hakim saymadı və beləliklə, sizi növbəti mərhələdən məhrum etdi. O vaxt səhv etmirəmsə Zelinka familiyalı çexiyalı hakim belə bir biabırçı addım atmışdır. Çox təəssüf edirəm ki, Avropa futbol məkanında bu biabırçı ənənə davam edir. Bu dəfə də xorvatiyalı hakim Yoviç açıqaydın bütün tamaşaçıların, televiziya tamaşaçılarının gözü önündə vurulmuş təmiz qolu saymadı. Buna səhv demək mümkün deyil. Çünki bu, Avropa turniridir. Bu, kənd turniri deyil, məhəllə turniri deyil, həyətlərarası turnir deyil. Bu, Avropa turniridir, buraya Avropanın ən peşəkar, ən təcrübəli hakimləri cəlb olunur və bu oyunlarda hakimlik edirlər. Necə ola bilər ki, qapı xəttindən ən azı bir metr keçən topu görməyəsən. Yaxşı, sən görmürsən, korsan, yan hakim də görmür, o da kordur? Bu korları necə yığıb doldurublar buraya?! Nə üçün məhz "Qarabağ"ın oyunlarında biz bu biabırçı mənzərə ilə üzləşirik. Mən bunun cavabını bilirəm, siz də bilirsiniz, Azərbaycan xalqı da bilir: ədalətsizlik, ikili standartlar, bizə, ölkəmizə, - təkcə sizə yox, - ölkəmizə qərəzli münasibət. Bunun cavabı budur. Əgər bir dəfə olsaydı, iki dəfə olsaydı, deyərdik ki, ola bilər, səhv olub. Hansısa təsadüfi hadisə nəticəsində baş verib. Yox, bu, sistem xarakterli problemdir.

Mən ümid edirəm ki, UEFA bu problemin aradan qaldırılması üçün əməli addımlar atacaq. Ümid edirəm ki, bu biabırçı hallara yol verən hakimlər cəzalandırılacaq. Əks təqdirdə, əgər onlara qarşı hər hansı bir cəza tədbiri tətbiq olunmasa, deməli, növbəti dəfə də biz bunun şahidi olacağıq. Növbəti dəfə də sizi haqlı qələbədən məhrum edəcəklər. Növbəti dəfə ədalətsizlik, ikili standartlar, ayrı-seçkilik davam edəcək.

Futbol və idman siyasətdən ayrı olmalıdır. Bunu bir çoxları deyir, amma əfsuslar olsun ki, bir çoxları da bu prinsipi pozur. Çünki idmanı siyasiləşdirmək, idmandan siyasi alət kimi istifadə etmək, idman nailiyyətlərini siyasi müstəviyə keçirmək cəhdləri kifayət qədər çox olub. Mən artıq 24 ildir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu illər ərzində dəfələrlə beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında bizə qarşı olan ədalətsizliklə rastlaşmışam. Son Olimpiya Oyunları istisna deyil. Əlbəttə ki, biz səssiz qalmamalıyıq.

Mən bilirəm ki, "Qarabağ" klubu, rəhbərlik, məşqçilər, həmişə özlərini çox ləyaqətlə aparırlar, bəzi başqa məşqçilər və klub rəhbərləri kimi hay-haray salmırlar, qalmaqal yaratmırlar, əl-qol açmırlar. Mən bunu təqdir edirəm. Güclü insan həmişə özünü nizamlı aparır, həmişə gücünü lazım olan halda işə salır və bunu mən alqışlayıram. Ancaq o demək deyil ki, hər dəfə bizə qarşı belə biabırçı hadisə baş versin. Ona görə əminəm Avropa futbol ailəsində qəbul edilmiş qaydalar əsasında lazımi hüquqi addımlar atılmalıdır ki, gələcəkdə belə hallar təkrarlanmasın.

Bununla paralel olaraq onu da deməliyəm ki, nə üçün mən buna bu qədər fikir verirəm. Bilin, hər bir Azərbaycan vətəndaşı kimi, o biabırçı halı görəndə mənim də ürəyim ağrıyır. Mən də ürəyimdə deyirdim, biz buna nə qədər dözməliyik. Nə vaxta qədər bu, davam edəcək. Biz hamımız yaxşı başa düşürük ki, bu, elə-belə hadisə deyil. Ya təlimatlanmış hakim bunu edir, ya da ki, özü hansısa fikirlər və duyğular əsasında bunu edir. Bunun başqa adı ola bilməz. Bunu görməmək mümkün deyil. Eyni zamanda, bu, bizi ruhdan salmamalıdır. Biz 28 il ərazisi işğal edilmiş ölkə kimi yaşamışıq. İyirmi səkkiz il dözüm göstərmişik, hazırlıq işləri aparmışıq, güc toplayırdıq və bu gücü topladıq, düşməni torpaqlarımızdan qovduq. Bu illər ərzində nə qədər ədalətsizliklərlə, nə qədər ikili standartlarla üzləşmişdik. Bu, bizi qətiyyən ruhdan salmadı, əksinə, məni prezident kimi daha da ruhlandırırdı, daha da əzmkar edirdi, daha qətiyyətli edirdi və bu tarixi missiyanı yerinə yetirmək üçün əlavə güc verirdi. Əminəm, bu ədalətsizlik sizə də əlavə güc verəcək, siz növbəti oyunlara daha böyük əzm və iradə ilə çıxacaqsınız, "Qarabağ" adını, Azərbaycan futbol ictimaiyyətinin adını uca tutacaqsınız.

Ağdam şəhəri nə gündədir, siz də gördünüz. İndi bütün dünya bunu görür. Artıq minlərlə insan - siyasətçi, deputat, ictimai xadim, jurnalist, xarici vətəndaş Ağdamda olub və bu dağıntıları görüb. Müharibənin başa çatmasından bir ildən çox vaxt keçir. İndi baxın, bir Avropa təşkilatı bu müsibət, bu fəlakət, bu faşizmlə bağlı bir söz deyib? Yox! Görməzliyə vururlar, sanki bu, heç olmayıb. İndi Ağdam şəhəri yoxdur, tamamilə dağıdılıb, talan edilib və hər tərəf minalanıb. Müharibə başa çatandan sonra biz artıq 200 nəfərə yaxın insanı ya itirmişik, ya da ki, onlar şikəst olub, əlil olub. Amma bir Avropa təşkilatı Ermənistanı bu müsibətə görə qınayıbmı? Yox! İşğal dövründə etnik təmizləməyə görə, Xocalı soyqırımına görə bir Avropa təşkilatı Ermənistanı qınayıbmı? Yox! Həqiqət budur, reallıq budur və əlbəttə ki, biz bu reallığı nəzərə almalıyıq, amma heç vaxt barışmamalıyıq. Necə ki, işğalla barışmamışdıq, ədalətsizliklə barışmamışdıq. Güc topladıq, düşmənə elə zərbə vurduq ki, bütün dünya bizim Qələbəmizlə bağlı artıq bir söz deyə bilmir və bütün dünya məcbur olub bizim tarixi Zəfərimizi qəbul edib. Çünki bunun başqa yolu yoxdur. Nəyə görə? Güc, iradə, birlik, həmrəylik və məsuliyyət. Siyasətdə, həyatda, idmanda bax, bu amillər hesab edirəm ki, hər bir insana, siyasətçiyə başucalığı gətirəcək. Bir daha demək istəyirəm ki, sizin qələbəniz, sadəcə, idman qələbəsi deyil. Çünki siz Ağdam şəhərini təmsil edirsiniz. Əminəm ki, gün gələcək biz Ağdamı dediyim kimi quracağıq, elə Ağdam quracağıq ki, bütün dünyaya örnək olacaq və siz ev oyunlarınızı Ağdamda keçirəcəksiniz, "İmarət" stadionunda keçirəcəksiniz, orada parlaq qələbələr qazanaraq xalqımızı sevindirəcəksiniz.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# İlham Əliyev: "Qarabağ" klubu Azərbaycan futbolunun flaqman komandasıdır

Mən sizinlə üçüncü dəfə görüşürəm - 2014-cü ildə, 2017-ci ildə və bu dəfə. Nə üçün? Çünki siz ölkəmizə, xalqımıza qələbələr gətirirsiniz və çox istərdim ki, bizim digər futbol klublarımız sizin yolunuzla getsin və mən onlarla da görüşüm, onları da nailiyyətlər, uğurlar münasibətilə təbrik edim. Əminəm ki, bu da olacaq. Amma "Qarabağ" yenə də deyirəm, hələlik Azərbaycan futbolunun aparıcı komandası olaraq qalır. Sizə yeni mərhələdə uğurlar, nailiyyətlər, qələbələr arzulayıram. Bir daha sizi təbrik edirəm.

X X X

"Qarabağ" futbol klubunun prezidenti Tahir Gözəl:

-Hörmətli Prezident, icazə verin, "Qarabağ" klubunun heyəti adından, "Qarabağ" sevərlər, fanatlar, ailəm, şəxsən öz adımdan bu gün bizi qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Ulu öndərimiz Heydər Əliyevin anım günündən bir gün sonra Sizin ziyarətinizdə olmaq bizə böyük bir şərəfdir.

Cənab Prezident, "Qarabağ" futbol klubu daha əvvəlki illərdə Sizin də qeyd etdiyiniz kimi, Qarabağdan olan köçkünlərimizin nidasını, Vətən həsrətini, torpağa haqlı tələbimizi Avropaya çatdırmaq, dünyaya çatdırmaq missiyasını öz üzərinə götürmüşdü və bu məsuliyyətlə böyük uğurlar qazandı. Amma bu il, cənab Prezident, çox fərqli bir ildir. Bu il Sizin çox möhtəşəm liderliyinizlə, fövqəladə cəsarətinizlə, Azərbaycan xalqının şücaəti, şəhidlərimizin müqəddəs fədakarlığı ilə möhtəşəm bir Qələbə qazanmış azad Qarabağı təmsil edən bir klub olaraq biz meydana çıxdıq. Cənab Prezident, çox zülm gördük, ədalətsizlik gördük, bir dəfə yox, bir neçə dəfə. Doğrudan da, bunu ağıla, fikrə gətirmək mümkün deyil ki, bu standartlarda necə oyun təşkil olunur və səs də çıxmır. Amma icazə verin, deyim ki, bizim mənəvi gücümüz Sizdən gəlir cənab Prezident, xalqımızdan gəlir "Qarabağ"a. Bizim öz daxili aləmimizdəki paklığımızdan gəlir, cənab Prezident. Biz heç vaxt unutmuruq ki, mədəniyyət mərkəzimiz Şuşada Ulu Öndərimizin "Şuşa mütləq bir gün bizim olacaq" sözlərindən sonra Sizin emosiyalarınıza, sevinc göz yaşlarınıza qoşulduq. Cənab Prezident, Siz məğrur duruşunuzla bizə ilham oldunuz və Allaha şükür, bu günlərə gəldik.

Cənab Prezident, biz birinci dəfə Sizinlə görüşəndə heç də qələbə qazanmamışdıq. Siz o gün bizə dediniz ki, mən sizi qalib sayıram, heç vaxt ruhdan düşməyin, davam edin. Dünyada elə bir klub yoxdur ki, üç dəfə rəhbərin qəbulunda olsun. Sizin bu mənəvi dəstəyinizdən sonra bizim öhdəmizə ancaq və ancaq uğur qazanmaq düşürdü və biz bunu yerinə yetirdik. Mən Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Allah Sizi qorusun, bizlərə çox görməsin. Bizlərə, xalqımıza olan diqqət və qayğınız daimi olsun, cənab Prezident. Çox sağ olun, Sizə çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun.

"Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov:

- Cənab Prezident, Sizi bütün məşqçilərimiz, bütün futbolçularımız adından bir daha salamlayıram və yenidən Sizin qəbulunuzda olmaq bizim üçün çox xoşdur. Mən çox istəyirdim ki, Sizi 44 günlük müharibədəki şanlı Zəfərimizdən sonra üzbəüz təbrik edim. Sizə bütün futbolçularımız adından, öz ailəm adından təşəkkür edirəm. Bu Qələbə xalqımızın gücünü göstərdi. İndiyədək nə qədər bizim güclü, bacarıqlı övladlarımız olmuşdursa, bundan sonra düşünürəm ki, onların sayı qat-qat çox olacaq. Əlbəttə, bizim hər dəfə bu qalibiyyətlərimizə belə dəyər verdiyiniz və bizə güc-qüvvət verdiyiniz üçün Sizə təşəkkür edirəm. İnanın, biz həmişə düşünmüşük ki, azarkeşlər üçün futbol oynayırıq, xalqımız, ölkəmiz üçün futbol oynayırıq. Həmişə çalışmışıq ki, özümüzü düzgün, doğru idarə edək, ən başlıcası, oyunda nizamlı, intizamlı aparaq. Hər dəfə də görəndə ki, Siz uğurlarımıza, bizim davranışımıza bu cür dəyər verirsiniz, inanın ki, məsuliyyətimiz, istəyimiz, gücümüz daha da çoxalır. Mən həmişə Sizin fikirlərinizi, bizə necə dəyər verdiyinizi futbolçulara çatdırıram. İnanın ki, bununla biz daha da inamlı oluruq. Son oyunda hakimin səhvindən sonra, elə orada mən öz müsahibəmdə bildirdim ki, bizə qarşı böyük bir ədalətsizlik olub. Amma bu, bizə daha da güc verir və bizi daha da ruhlandırır. Onların qarşısında bunu söylədim. Biz bu cür ədalətsizlikləri dəfələrlə görmüşük. Ancaq öz istəyimizlə, xarakterimizlə, birliyimizlə bundan sonra da belə daha inamlı və daha da ürəkli olmağa çalışacağıq. Həqiqətən bizim üçün çox xoş oldu. Çox sağ olun ki, bir daha bizi qəbul etdiniz və belə dəyər verdiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Biz futbolçu olaraq, "Qarabağ" klubu olaraq həmişə Sizin yanınızdayıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən bir daha sizə təşəkkürümü bildirirəm, yeni uğurlar, qələbələr arzulayıram.

Tahir Gözəl: Cənab Prezident, icazənizlə, Sizə hədiyyəmiz də var. Bu, Konfrans Liqasında komandanın geyimidir.

Prezident İlham Əliyev: Hədiyyəniz də var, çox yaxşı. Çox sağ olun.

Futbolçuları təbrik edən dövlətimizin başçısı dedi: O qolu sən vurmusan deyəsən "İnter"ə. Saymadılar. Təbriklər. Sən də qol vurmusan, saymadılar. Sən də yaxşı qapıçısan, cəsarətlə qabağa gedirsən.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 18 il keçir. AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.***

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın Dövlət Himni səsləndirildi. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.







X X X

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İntibah, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, müstəqilliyimizin dönməz xarakter alması bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana sılahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Ulu Öndərin anım günündə bu dahi şəxsiyyətin xilaskarlıq missiyası xüsusi minnətdarlıqla xatırlanır. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş xalq ötüb keçənləri unutmayıb və xilasına görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə bəslənən tükənməz sevgi və ehtiramdan xəbər verir.

# Prezident İlham Əliyev Belçikada işgüzar səfərdədir












**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Avropada yaşayan azərbaycanlılar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi Brüsseldə qarşılamağa çıxıblar. Onlar əllərində fransız və ingilis dillərində "Cənab Prezident, xoş gəlmisiniz!", "Avropa azərbaycanlıları Sizi salamlayır!", "Azərbaycan ümumi dəyərlərə hörmət edir!" sözləri yazılmış plakatlar, eyni zamanda, Azərbaycanın və Avropa İttifaqının bayraqlarını tutublar.

## Tahir Budaqov: Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyində hər zaman müstəsna xidmətləri ilə yadda qalıb



**"Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyində hər zaman müstəsna xidmətləri ilə yadda qalıb. Dünyada yaşayan bütün azərbaycanlılar Heydər Əliyevin əziz xatirəsini daim uca tutur. İnsanlar Ulu Öndərimizin anım günündə Fəxri xiyabana axışaraq onun xatirəsini böyük ehtiramla yad edirlər". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.**

Tahir Budaqov bildirib ki, Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusudur. Onun sözlərinə görə, 1993-cü ildə respublikamızın parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı vaxtda xalqın təkidli tələbi ilə Ulu Öndər hakimiyyətə qayıdıb müstəqilliyimizi itirmək təhlükəsindən xilas edərək Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxardı: "Heydər Əliyevin Azərbaycan Prezidenti kimi 1993-2003-cü illərdə gördüyü böyük işlər, onun müəyyənləşdirdiyi işıqlı yol bugünkü güclü, qüdrətli Azərbaycanın yaradılmasının təməlini qoyub. Ümumiyyətlə, bütün sahələrdə Heydər Əliyev siyasəti öz bəhrəsini verir. Bu böyük yolun kulminasiyası olaraq ötən il Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz ərazi bütövlüyümüzü təmin edərək Ulu Öndərimizin ən ümdə arzusunu yerinə yetirdi. Bu gün Azərbaycan nəinki Cənubi Qafqaz regionunda, bütövlükdə Avrasiya məkanında böyük nüfuza malik dövlət olaraq regional məsələlərin həllində, bölgənin siyasi mənzərəsinin formalaşmasında mühüm rol oynayır. Təbii ki, bütün bu proseslərin təməlində Heydər Əliyevin müəyyən etdiyi siyasət dayanır. Ulu Öndərimizin azərbaycançılıq ideologiyası ətrafında bütün azərbaycanlılar birləşiblər. Bunun nəticəsində dünyada yüz illərlə formalaşmış erməni yalanlarının ifşa olunması, Azərbaycan və xalqımız haqqında mənfi imicin darmadağın edilməsi, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ərazi bütövlüyümüzün tanınması ilə bağlı sənədlərin qəbul olunmasına nail olunub.

Eyni zamanda, Heydər Əliyev Azərbaycanın iqtisadiyyatını tamamilə yenidən qurub, milli maraqlarımıza əsaslanan neft strategiyası formalaşdırıb. İqtisadiyyatın dirçəldilməsi, hərbi quruculuq sahəsində görülən işlər və digər uğurlar nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu dövlət kimi qəbul olunmasını şərtləndirib. Möhkəm təməllər üzərində müəyyənləşdirilmiş siyasət nəticəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan güclü dövlət kimi bundan sonra da böyük nailiyyətlərə imza atmaq əzmindədir".

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.







# “Şuşanın bərpası və yenidənqurması xüsusi həssaslıqla aparılır”

**Dekabrın 13-də Heydər Əliyev Mərkəzində ”İşğaldan azad edilmiş ərazilərdə mədəni irs abidələrinin bərpası üzrə layihələr: hədəflər, çağırışlar, xüsusiyyətlər, perspektivlər” mövzusunda dəyirmi masa keçirilib.**

Belə ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov çıxış edib. Bildirib ki, otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi nəticəsində azad edildikdən sonra burada genişmiqyaslı quruculuq-bərpa işlərinə start verilib. Bölgədə infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, o cümlədən bərpası istiqamətində genişmiqyaslı işlərin həyata keçirilməkdə olduğunu deyib.

”Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib.




Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Bununla bağlı beynəlxalq təcrübə öyrənilir və abidələrin bərpası, konservasiyası və yenidən qurulması üzrə işlərdə, həmçinin mütərəqqi üsullar tətbiq edilir”, - deyə Anar Ələkbərov bildirib.



Prezidentin köməkçisi qeyd edib ki, Heydər Əliyev Fondu Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Bölgədə sürətlə aparılan quruculuq işlərinə töhfə vermək məqsədilə yeni dini və mədəniyyət obyektlərinin inşası da nəzərdə tutulur. Prezidentin köməkçisi işğaldan azad olunan ərazilərdə bərpa prosesində iştirak edən Azərbaycanın özəl sektoruna, o cümlədən ”Pasha Holding”ə, bərpa-yenidənqurma işlərini işıqlandırdıqlarına, dünyaya çatdırdıqlarına görə media nümayəndələrinə təşəkkürünü ifadə edib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhərin tarixi görkəminin bərpası üzrə qısa müddət ərzində böyük işlər görülüb. Şəhərin tarixi abidələr yerləşən hissələri zonalara ayrılıb. ”Bildiyimiz kimi, təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Bu abidələrin hər birinin bərpası bizim üçün xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə Sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidənqurması xüsusi həssaslıqla aparılır”, - deyə Aydın Kərimov bildirib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, Heydər Əliyev Fondu apardığı bütün bərpa işlərində inklüziv yanaşmadan istifadə edir, bu işlərə xarici mütəxəssislər cəlb edilir. Bu, tamamilə doğru yanaşmadır. Çünki bərpa olunan abidələr təkcə Azərbaycanın deyil, bütün dünyanın mənəvi sərvətidir. İşğaldan azad edilmiş ərazilərdəki abidələrin bərpası Qarabağ Dirçəliş Fondu üçün ən prioritet məsələdir. Fond bu işlərdə daim Heydər Əliyev Fondu ilə əməkdaşlıq edir.

”Uni Construction” şirkətinin bərpaçısı, italiyalı mütəxəssis Luigi Scrinzi bildirib ki, Qarabağdakı maddi-mədəni abidələr inanılmaz dağıntılara məruz qalıb. ”Qarabağ” ”böyük bağ”, ”yaşıllıqlarla zəngin olan, abad məkan” deməkdir. Lakin bu məfhumlardan heç birinə Qarabağda rast gəlinmir. Bu gün Qarabağın yenidən dirçəldilməsi, həyata qaytarılması istiqamətində böyük işlər görülür. Bu yerlərin abadlaşdırılması həm də müqəddəs mahiyyət daşıyır.

Daha sonra ”Uni Construction” şirkətinin layihə rəhbəri, türkiyəli mütəxəssis Əli Ünlü, Avstriyanın ”PARTNER Consulting+Projects” şirkətinin bərpaçısı Roman Brugger, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov, ”Cronos” şirkətinin baş bərpaçısı Uğur Miralay, Gürcüstan Milli Muzeyinin Konservasiya Elmi İnstitutunun Restavrasiya şöbəsinin rəhbəri Salome Guruli və Gürcüstan Milli Muzeyinin Konservasiya Elmi İnstitutunun rəhbəri Nino Kalandadze, Latviyanın ”Buvtelnieks” şirkətinin layihələr üzrə baş meneceri Sandis Cvetkovs, ”Simmetrico” şirkətinin baş memarı Françesko Giordano müxtəlif mövzularda çıxışlar ediblər.

ANALİTİK+AKTUAL

# Zəngəzur dəhlizi - nə baş verir?

**Ya Rusiya tərəfi vasitəçi vəzifəsinin öhdəsindən gələcək və Ermənistanı razılaşmaları yerinə yetirməyə məcbur edəcək, ya da Azərbaycanın alternativ variant kimi güc yolundan istifadə ertməsi üçün yaşıl işıq daim yanmaqdadır**

Ermənistanın Zəngəzur dəhlizi ətrafındakı yanlı mövqeləri və spekulyasiyaları bu mövzunun davamlı olaraq gündəmdə qalmasına səbəb olmaqdadır. Halbuki üçtərəfli görüşlərin hər birində dəhlizin açılması və istifadəsi barədə kifayət qədər dəqiq fikirlər ortaya qoyulub. Üstəlik, rəsmi İrəvan öz imzasına məhəl qoymayaraq Bakının onunla sərt dildə danışmasına kifayət qədər rəvac verir. Məhz bu baxımdan, 2020-ci ilin 9/10 noyabr və 2021-ci ilin 11 yanvar razılaşmalarını yenidən sadalamağa da ehtiyac yoxdur. Eləcə də ötən ay Soçidə keçirilən üçtərəfli görüşdən də məlum oldu ki, Azərbaycan qarşısına qoyduğu məqsədinə nail olacaq və bu məsələdə ortaqlıq edən Rusiya da öz yardımını göstərmək həvəsində olduğunu nümayiş etdirir.

## 2021-ci ilin yayından etibarən Ermənistanın baş naziri Nikol Paşinyanın fikir ayrılığı səbəbindən proses dayandırılır, Azərbaycan Prezidenti İlham Əliyev xəbərdarlıqlarını edir

Daha bir xatırlatmanı da etmək olar ki, 2021-ci ilin yanvar ayından başlayan Azərbaycanın, Ermənistanın və Rusiyanın baş nazirlərinin müavinlərinin işçi qrup halındakı görüşlərinin əsasında da 10 noyabr 2020-ci və 11 yanvar 2021-ci il görüşləri dayanmaqdadır. Belə olan halda İrəvanın hələ də nəyəsə ümid etməsi yalnız onun ziyanına işləməkdədir. Hadisələrin gedişatını təhlil edərkən görmək olur ki, məhz 2021-ci ilin yayından etibarən Ermənistanın baş naziri Nikol Paşinyanın fikir ayrılığı səbəbindən proses dayandırılır. Bu fikir ayrılığının, yaxud daha dəqiq desək, inadkarlığın nədən ibarət olduğunu isə Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb.

Beləliklə, Azərbaycanın dövlət başçısı 2021-ci ilin avqustundakı çıxışı zamanı bildirib ki, erməni tərəfi Zəngəzur dəhlizində yalnız dəmir yolunun fəaliyyətinə razıdır, avtomobil yolu ilə bağlı isə fəqli, daha doğrusu, əks münasibət göstərilir. ”Eyni zamanda, biz Qərbi Zəngəzurun Mehri bölgəsində yolun çəkilməsini tələb edirik. Bu, tamamilə vacibdir. Təəssüf ki, Ermənistan buna qarşıdır”, deyə ölkə rəhbərimiz vurğulayıb.

## Vladimir Putinin avtomobil yolu rabitəsindən söz açması Ermənistanın nəhayət ki, razılıq verdiyinə vurulan eyham idi

Ötən ay - noyabrın 26-da isə üç ölkənin siyasi liderlərinin Soçi görüşünün sonunda Rusiya prezidenti Vladimir Putin maraqlı və diqqətçəkici bəyanatla çıxış edib. ”Biz iqtisadi məsələlərdən, iqtisadi əlaqələrin inkişafı ilə bağlı çox ətraflı danışdıq və ilk növbədə nəqliyyat dəhlizlərinin blokadadan çıxarılmasından danışdıq - bu, həm dəmir yoluna həm də digər yol kommunikasiyalarına aiddir”, deyən Vladimir Putin bununla bağlı yerdə qalan nəticələri də əldə etmək üçün Moskvada baş nazir müavinlərinin görüşlərinin keçiriləcəyini bəyan etdi. Və beləliklə, Vladimir Putinin avtomobil yolu rabitəsindən söz açması Ermənistanın nəhayət ki, razılıq verdiyinə vurulan eyham idi. Baş nazirlər müavinlərinin Moskva görüşləri baş tutdu və dekabrın q-də məlum oldu ki, bu görüşdə Ermənistan tərəfi yenidən sözün əsı mənasında siyasi tərbiyəsizliyə yol verib və ortaq məxrəcə gəlinməyib. Söz yoxz ki, bu da Putinin Soçidə əminliklə verdiyi bəyanatını kölgədə qoyub.

## Lavrov Mirzoyana barmaq silkələsə də...

Bunun ardınca isə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana telefon zəngi edir və ”Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 26 noyabr 2021-ci il tarixli Soçi razılaşmalarının həyata keçirilməsinə xüsusi diqqət yetirilir”, deyə xatırlatma edir, əslində isə barmaq silkələyir.

Lavrov Rusiyanın Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə işlərin mümkün qədər tez başlamasının təmin edilməsinin tərəfdarı olduğunu bildirib, və sonradan sərhədlərin demarkasiyası ilə yanaşı, prosesin əldə edilmiş razılaşmlarar çərçivəsində praktiki müstəviyə çevrilməsinin vacibliyini vurğulayıb. Beləliklə, Lavrov sözügedən mesajında Moskvanın mövqeyini ifadə edib və xatırladıb ki, artıq Soçidə konkrert razılaşmalar əldə edilib, baş nazir müavinlərindən ibarət işçi qrupu (daha dəqiq Ermənistan) isə bu razılaşmaları həyata keçirməlidir.

## Bakının İrəvana dəfələrlə etdiyi xəbərdarlıqlarının ardınca Moskva da qolunu çırmalayıb və konkrert şəkildə mövqeyini ifadə edib

Bəli, belə bir sual yaranır ki, Lavrov nəyə görə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova deyil məhz Aararat Mirzoyana zəng edib? Bu sualın da cavabı bəsitdir. Əgər danışıqların, yaxud əldə olunmuş razılaşmaların pozulmasına səbəb Azərbaycan tərəfi olsaydı, Lavrov Bayramova zəng edərdi. Ancaq o, Mirzoyana zəng vurur və Soçi razılaşmalarının, eləcə də üçtərəfli işçi qrupun razılaşmalarının yerinə yetirilməsinin vacibliyini vurğulayır.

Beləliklə, Bakının İrəvana dəfələrlə etdiyi xəbərdarlıqlarının ardınca Moskva da qolunu çırmalayıb və konkrert şəkildə mövqeyini ifadə edib - ya Rusiya tərəfi vasitəçi vəzifəsinin öhdəsindən gələcək və Ermənistanı razılaşmaları yerinə yetirməyə məcbur edəcək, ya da Azərbaycannın alternativ variant kimi güc yolundan istifadə ertməsi üçün yaşıl işıq daim yanmaqdadır.

***Rövşən RƏSULOV***

# Onlayn alış-veriş edərkən nələrə diqqət edilməlidir



**Onlayn alış-veriş əməliyyatlarınızda hər hansı saxta əməliyyatlarla qarşılaşmağınıza onlayn alış-veriş fırıldaqçılığı deyilir. Onlayn alış-veriş dələduzluğu son vaxtlar ən çox yayılmış fırıldaqlardan biridir. İnternetin geniş yayılmasından sonra internet fırıldaqları da artıb.**

İnsanlar internet vasitəsilə dələduzluq cinayətləri törədirlər ki, bunu normal həyat tərzində edə bilməzlər. İnternetdə şəxsiyyətini daha asan gizlədən fırıldaqçılara aldanmamaq üçün tanış olmayan saytlardan alış-veriş etməməli, kartınızla bağlı vacib məlumatları istəyən saytlardan uzaq durmalısınız.

Bildiyimiz kimi koronavirus epidemiyası dünyaya təsir etdi və istehlakçıların alış-veriş vərdişləri də dəyişdi. Hal-hazırda onlayn alış-veriş edənlərin sayı artıb. Bəs, onlayn alış-veriş edərkən nələrə diqqət etməliyik? Dükan-dükan gəzməkdən bezmisinizsə, lakin onlayn seçimlərinizdən də əziyyət çəkirsinizsə, asan onlayn alış-veriş üçün bu məsləhətləri yoxlayın.

Koronavirus epidemiyası ilə əlaqədar onlayn alış-veriş artmağa başlayıb. Bir çox vətəndaş mağazalarda uyğun məhsul axtarmaq əvəzinə onlayn alış-veriş edir. Onlayn alış-veriş edərkən nəzərə alınmalı olan bəzi məqamlar bunlardır:

### Doğru alış-veriş təhlükəsiz sayt tapmaqdan başlayır



İlk növbədə, düzgün alış-veriş təhlükəsiz sayt tapmaqdan başlayır.

### Anonim saytlara şübhə ilə yanaşmaq lazımdır

Çox az tanınan və ya adı heç eşidilməmiş saytlara şübhə ilə yanaşmaq lazımdır. Ünvan, başlıq və məlumatlar tam qeydiyyatdan keçməlidir. Məhsulların növü, miqdarı, rəngi, qiyməti, yığım məlumatları (ƏDV daxil olmaqla) daxil edilməlidir.

### Ünvan sətirinə veb saytın adını yazın

İstehlakçılar skeptik olmalıdırlar. Əgər vebsaytda durğu işarələrinin çoxluğu, loqoda rəng tonu fərqliliyi, şrift dəyişikliyi varsa, bilməlisiniz ki, həmin sayt tanınmış internet alış-veriş saytının imitasiyasıdır. Bu zaman axtarış sistemində internet saytlarını axtarmaq yerinə ünvan sətrində birbaşa saytın tam adı yazılmalıdır.

### Məsafədən satış müqaviləsini oxuyun

Məhsulu seçdiniz, ödəniş üsulunu seçdiniz, indi son bir addım qaldı, ödəmə düyməsini sıxmaq, o düyməni basmazdan əvvəl bir şey haqqında düşünmək lazımdır. Siz məsafədən satış müqaviləsini oxumusunuz? Əgər oxumamısınızsa, siz həm hüquqlarınızdan, həm də öhdəliklərinizdən xəbərsizsiniz.

### Təhlükəsiz ödəniş üsulunu seçin

Ödənişləri həyata keçirərkən virtual kartdan istifadə etməyi və təhlükəsiz ödəniş üsulunu seçməyi xatırlamaq vacibdir.

### Məhsul sifarişindən imtina hüququnuzdan istifadə edə bilərsiniz

Məhsul qapınıza çatdı, lakin əskik məhsul və ya sifariş etmədiyiniz məhsul çatdırıldı. Bu halda siz müqavilədən irəli gələn geri çəkilmə hüququndan istifadə etməlisiniz. Eyni zamanda məsafəli müqaviləyə birtərəfli qaydada xitam verilir.

### Ölçülərinizi ölçüb dəqiqləşdirin

Ölçülər markadan asılı olaraq çox fərqli olduğundan, onlayn paltar alış-verişi zamanı ən böyük narahatlıqlardan biridir. Problemi aradan qaldırmaq üçün əvvəlcədən ölçmələrinizi dəqiqləşdirin və ölçü cədvəlini yoxlayın. Bəzi saytlarda hətta bədəninizi harada və necə ölçmək lazım olduğunu göstərən ölçü cədvəlləri var, buna görə də düzgün məlumatla başlamalısınız.

### Çalışın ödənişsiz çatdırılma olan geyimləri seçin

Bir çox onlayn mağaza, müəyyən bir məbləğdən çox xərclədiyiniz təqdirdə pulsuz çatdırılma təklif edir. Lazım olan paltarları dərhal alın və geyiminizi çatdırılma xərclərindən xilas edin.



### Geyimin altındakı rəyləri oxuyun

Rəylər geyimlərin davamlılığını, onların hansı vəziyyətdə olduğunu, rahatlığını və ölçü cədvəlinə nə qədər uyğun olduğunu təsdiq edə bilər. Bəzi rəylərə müştərilərin şəkilləri də daxildir. Yəni, bəzi müştərilər geyimi əldə etdikdən sonra başqa alıcılar da faydalansın deyə geyinib şəklini saytda paylaşır.

### Materiallar haqqında məlumatlanın

Bu ipucu ilk dəfə onlayn alış-veriş edənlər üçün intuitiv olmaya bilər, çünki materialı mağazada əldə etmək asandır, lakin paltarın uyğunluğunu, görünüşünü və toxumasını müəyyən etmək üçün parçanı yoxlamaq vacibdir. Paltarın nədən hazırlandığını bilmək, geyindiyiniz zaman paltarın necə kiçiləcəyi, uzanacağı barədə düşünməyə kömək edir.

### Nəticələri analiz edin

Onlayn mağazalar onlayn olmayan mağazalardan daha çox seçim təklif edirlər, çünki saxlama məhdudiyyəti yoxdur. Seçimlərin çoxluğu həddən artıq çox ola bilər.

### Qaytarma şərtlərini oxuyun

Bunları nəzərə alaraq, geri qaytarma si-



yasəti ilə tanışsınızsa, onlayn aldığınız paltarlardan razı deyilsinizsə, problem yaşamamalısınız. İstənməyən paltarları müəyyən edilmiş müddət ərzində qaytardığınızdan əmin olun. Mağaza geri qaytarmağa icazə vermirsə, başqa yer axtarmağı düşünün. Siz adətən saytda istənilən səhifənin aşağı hissəsində geri qaytarma siyasətinə keçid tapa bilərsiniz.

### Çatdırılma zamanını yoxlayın

Geyimlərin sizə çatması təqribən üç həftə çəkə bilər - əgər beynəlxalq alış-veriş edirsinizsə, daha çox vaxt lazımdır. Normalda, bu böyük bir şey deyil, amma dostunuzun toyu üçün lazım olan paltarı tədbirdən bir gün əvvəl almamağı unutmayın.

SİA onlayn alış-veriş edərkən nələrə diqqət etməli olduğumuz barədə psixoloq və geyim üzrə mütəxəssislərin fikirlərini öyrənib.

Psixoloq Zeynəb Eyyubova: "Ümumiyyətlə, bəzi işlər var ki, insanın beynində serotanin və dopamin hormonunu qaldırır. Bunları dərman vasitəsi və ya hər hansı bir işləri görərək etmək olur. Hər insanın dopamin və sonatanin hormonunu qaldıran işlər fərqlidir. Məsələn, idmanla məşğul olan insanların dopamin enerjisini idmanla məşğul olmaq qaldırır və yaxud başqa birisi isə qadınlar daha çox alış-veriş edərkən onların xoşbəxtlik hormonları yüksəlir. Bu düzdür, yüz faiz qadınlara aid deyil. Amma 90 faiz etibarilə qadınlar alış-veriş edərkən daha çox zövq alır və bundan xoşbəxt olurlar. Ona görə də psixoloji cəhətdən xoşbəxt olduqlarını hiss edirlər.

Amma həddən artıq çox bu işi görən var ki, yəni qolik vəziyyətinə gələn o artıq pik həddidir. Yəni, hər şey həddində gözəldir. Əgər dayanmadan bu hadisə baş verirsə hər gün artıq bu pik həddidir və psixoloji konsultasiya vacibdir".

Stil məsləhətçisi, geyim psixoloqu Rena Əliyeva: "Onlayn alış-veriş zamanı insan ilk öncə öz bədən quruluşunu bilməlidir ki, düzgün seçim etsin. Çünki bədən iki hissəyə ayrılır: yuxarı bədən və aşağı bədən. Bəzi insanların yuxarı bədəndə problemi ola bilər. Problem dedikdə buraya çiyinlərin normal standartdan daha kiçik olması, qarın hissənin artıqlıq təşkil etməsi, sinənin böyüklüyü nəzərdə tutula bilər. Bu insanlara onlayn alış-verişdə üst hissə üçün geyim almağı məsləhət görmürük. Çünki bu tip bədən quruluşu olan insanlar geyimi geyinib üzərlərində görməlidirlər.

Ayaqlar incədirsə, alt hissə üçün geyimlər sifariş etmək daha rahatdır. Bəzi insanların isə çanaq hissəsi normadan geniş və balacadır. Bu tip insanlar da alt hissə geyimlərini onlayn sifariş verməkdə çətinlik çəkəcəklər.

Onlayn sifarişdə ən risksiz parçalar geniş donlardır. Əgər çiyin asqısı yerindədirsə bədənə tam yapışmayan geniş donlar uğurlu seçim olur və bunu bir çox bədən tipi geyinə bilir. Ümumiyyətlə, geniş geyimlərə onlayn seçimdə üstünlük vermək yaxşıdır. Dar geyimləri isə üstümüzdə görməliyik. Bədəni düzgün tanıyıb sifariş versək hər şey daha yaxşı olacaq.

Əsas məsələ keyfiyyətdir. Hal-hazırda insanlar mağazalarda geyimi geyinib yoxladıqdan sonra eyni parçanın onlayn sifarişini edirlər. Bunun da səbəbi aradakı olan kəskin qiymət fərqidir. Bu daha məntiqlidir.

Onlayn sifariş incə xanımlar üçün çox böyük problem yaratmasa da artıq çəkili xanımlar üçün müəyyən problem yaradır. Əsas bədən ölçümüzü bilməliyik. Bunun üçün də internetdən araşdırma edə bilərik. Həmçinin hər mağazanın da ölçü sistemi fərqlidir. Onlayn sifarişdə uğursuz addım atmamaq üçün profesional dəstək almaq şərtdir. Mən, müştəri üçün onlayn geyim sifariş etdikdə hər mağazadan fərqli şəkildə ölçü cədvəlini tələb edirəm. Çünki onların balaca bədənləri başqa markada orta bədən sayılır. Bu da ölkələrdəki qadınların bədənlərinə görə təyin edilir.

Onlayn sifariş heç də asan deyil. Hətta normal alış-veriş etməkdən daha çətindir. Seçim etmək, gələn rəngin bizi yanıltmağı da olur. Burada ən vacib məqam da təcrübədir. Mağazanın hansı keyfiyyətdə olmasını, qiymətin münasibliyini isə biz mütəxəssislər bilirik".

*Ayşən Vəli*

# Əcnəbi ekspertlər:

## "Sülh müqaviləsi imzalanana qədər sərhəddə gərginlik davam edəcək"

**2-ci Qarabağ Müharibəsinin başa çatmasından bir ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan hələ də Azərbaycanla sülh müqaviləsi üzərində işləməkdən imtina edir və birgə bəyanata baxmayaraq, nəqliyyat şəbəkələrinin açılması və sərhədlərin delimitasiyası prosesinə başlamağa tələsmir. Baxmayaraq ki, Soçidə keçirilən görüşün sonunda da belə qərar qəbul edilib. Nəticədə, Azərbaycan ordusu sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı qərarı yaxınlaşdıra bilib. Həll edilməmiş sərhəd məsələsi Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında müntəzəm toqquşmalara gətirib çıxarır ki, onlardan da ən böyüyü bu il noyabrın 16-da baş verib.**

Ötən gün Ermənistan tərəfinin Kəlbəcər istiqamətində törətdiyi silahlı təxribat nəticəsində Ermənistan Müdafiə Nazirliyi bir hərbçinin itkisini, daha 8 hərbçinin isə yaralandığını etiraf edib. Tanınmış xarici hərbi ekspertlər "Caliber" analitik mərkəzinə Ermənistan-Azərbaycan sərhədində son toqquşmalar fonunda yaranmış vəziyyətlə bağlı münasibət bildiriblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

**Rusiyalı hərbi ekspert Vladislav Şurıqin:**



-Müharibə bitib, amma sərhəd işləri başa çatmayıb və müvafiq olaraq belə bir vəziyyət yaranır. Ermənistanın müdafiə obyektləri Azərbaycan bölmələrinin mövqelərinə yaxındır. Bu, müharibə bitdikdən sonra, bütün müqavilələr imzalanana qədər normal vəziyyətdir.



Hesab edirəm ki, bütün bunlar xəritələrdə nəzərə alınacaq və təbii ki, qüvvələrin ayrılması, sərhədlərin demarkasiyası aparılacaq ki, bu da müharibənin bitməsinə şərait yaradacaq.

Müharibə bütün sənədlər imzalanandan və demarkasiya xətti çəkiləndən sonra bitəcək, ona görə də indi bir-birini təhrik etməmək çox vacibdir, çünki bu vəziyyətdə dost olmayan xalqların yaxınlığı müəyyən toqquşmalara və zorakılıq partlayışlarına gətirib çıxara bilər ki, bu da heç kimə lazım deyil.

**Rusiyalı hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko:**



-Hazırda biz görürük ki, Azərbaycan vəziyyətə və sərhədə nəzarət edir, çünki keçid məntəqələri və müvafiq olaraq Azərbaycan hərbçiləri dominant yüksəkliklərdədir. Bu, vəziyyətlərin hər hansı mümkün kəskinləşməsi zamanı və ya hadisələr forsmajor vəziyyətə düşərsə, onların mühüm taktiki üstünlüyü deməkdir.

Erməni keçid məntəqələrinin texnikasına gəlincə, onlar kifayət qədər primitiv və taktiki cəhətdən çox savadsız icra olunublar. Buna görə də, bu halda, onun varlığının təyin edilməsindən başqa bir şey deyil. Real döyüş şəraitində bütün üstünlüklər Azərbaycan silahlı qüvvələrinin tərəfindədir.

**Ukraynalı hərbi ekspert, ehtiyatda olan polkovnik Oleq Jdanov:**



-Mövcud vəziyyət bitməmiş münaqişənin nəticəsidir. Azərbaycanla Ermənistan arasında tam hüquqlu sülh müqaviləsi imzalanmayana qədər vəziyyət elə qalacaq. Azərbaycan düşmənin mövcud nəzarət-buraxılış məntəqələrini öz ərazisindən nə qədər tez qovsa və sərhəd xəttinə atəş nəzarətini tam ələ keçirməsə, hər şey eyni axarda olacaq, yəni vəziyyət partlayış həddində qalacaq. Hətta Azərbaycan ordusunun dayaq məntəqələri sisteminin dərinliklərində Ermənistan Silahlı Qüvvələrinin təxribat və kəşfiyyat fəaliyyəti də mümkündür. Hərbi baxımdan bu, sadəcə olaraq, qəbuledilməzdir. Hesab edirəm ki, Baş Qərargahımız bunun aradan qaldırılması üçün çalışır. Yarımçıq qalmış münaqişənin vəziyyəti yuxarıda dediyim kimi sülh müqaviləsi imzalanmayana və Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiyası və delimitasiyası prosesi həyata keçirilməyənə qədər davam edəcək.

***Tərcümə - Elçin Bayramlı***



# Nikola qarşı "hibrid müharibəsi" aparılır?

**Bu gün erməni baş nazir Nikol Paşinyan bəyan edir ki, ona qarşı "hakimiyyətə xəyanət" ittihamı, sadəcə olaraq, bəzi qüvvələr tərəfindən diqqətlə işlənmiş və illər ərzində dəqiqləşdirilmiş hibrid müharibəsinin epizodudur. Yəni Nikolun "Facebook" səhifəsində yazdıqlarına inansaq, belə görünür ki, bu gün ona qarşı ölkədə hibrid müharibəsinə start verilib. Yenə də, Nikolun dediyinə inansaq, hazırda onun hakimiyyətinə qarşı hibrid müharibəsi müxtəlif yollarla aparılır.**

Məsələn, o gün ermənilərin daha çox "amerikaşünas" kimi tanıdıqları Suren Sarkisyan adlı birisi Ermənistan hakimiyyətinin guya hər hansı bir anti-Türkiyə proseslərində iştirakdan imtina etdiyini bildirib. Deyim, Suren dediklərini isbatlamaq üçün bəzi dəlillər də gətirib. Diqqət verin, Surenə görə "...niyə Ermənistan hakimiyyəti heç bir rəsmi və ya qeyri-rəsmi anti-Türkiyə platformalarına, beynəlxalq alyanslara və ya formatlara qoşulmur?".

Surenin fikrincə, erməni hakimiyyəti "passivlik nümayiş etdirib" anti-Türkiyə platformalarına qoşulmur, əksinə Türkiyə ilə münasibətləri normallaşdırmaq üçün müxtəlif vasitəçilər axtarır.

Yenə də Surenə görə, bütün bunlar Ermənistanda inkar edilə bilməyən reallıqdır. Maraqlıdır ki, erməni "amerikaşünas" Ermənistan hakimiyyətinin Türkiyəyə müqavimət göstərmək, ona qarşı çıxmaq və ya cilovlamaqdan əl çəkməsini erməni xalqı üçün "üzücü bir hal kimi" dəyərləndirir.

Surenin fikrincə, bunlar İrəvan üçün Türkiyəyə qarşı bütün imkanlardan imtina etmək və nə vaxtsa danışıqlar zamanı bütün alətləri itirmək, birtərəfli güzəştlər sahəsində qalmaq deməkdir. Əslində isə, Ermənistan gərək Türkiyə üçün bütün məsələlərdə... "başağrısı olmalıdır. Səbəb, yenə də erməni düşüncəsinə görə, guya Türkiyənin bu gün də Ermənistanı düşmən gözündə görməsidir... İnanın ki, burada "camaata it hürər, bizə çaqqal" məsəlini xatırlamadan keçmək olmur.

...Deyim ki, Nikola, onun səriştəsizliyinə irad bildirib ona qarşı "hibrid müharibəsinə" qalxanlardan biri də, Serjik Sarkisyanın partiyasından olan Armen Aşotyandır. Belə ki, Armen bu dəfə Amerikaya gedib "Demokratiya Sammit"də "suveren" Ermənistanı təmsil edən Paşinyanın "bütün zəngləri çalıb sammit iştirakçılarını Türkiyə və Azərbaycana qarşı təzyiq tələb etməməkdə günahlandırır.

Armenə görə, "...ən əsası odur ki, Nikol Paşinyan bu tədbirdə iştirak edərkən Azərbaycan və Türkiyə tərəfindən hücuma məruz qaldığımız barədə bir kəlmə də olsun danışmayıb. Erməni xalqının "fundamental hüquqları"nın Azərbaycan tərəfindən pozulduğunu sivil dünyaya çatdırmayıb.

...Doğrudan da, Armenə görə haqlı iraddır. Amma Armen bu iradını bildirərkən, Ermənistanın bu tədbirə, sadəcə olaraq, "yer doldurmaq" üçün "dəvət edildiyini" çox yaxşı qanır. Çünki, bu gün avropalılar kimi, Amerika rəsmiləri də Ermənistanın hansı "demokratiyaya" sahib olduqları barədə yaxşı məlumatlıdırlar.

...Məhz bu mənada Armenin Nikola qarşı bu iradı, onun özünü Serjikin yanında "şirin salmaqdan" başqa bir şey deyil.

***Ağasəf Babayev***

# İrəvan-İstanbul hava reysi açılarsa NƏLƏR BAŞ VERƏ BİLƏR?




"İrəvan-İstanbul hava reyslərinin işə başlaması əhəmiyyətli addımdır". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi İlqar Vəlizadə deyib.

O, qeyd edib ki, bu bir tərəfdən ondan xəbər verir ki, regionda kommunikasiyalar açılır. Bu da bütün tərəflərə, o cümlədən Ermənistana xeyir gətirəcək. Digər tərəfdən, bu reyslərin sayı digərlərinə nisbətən az deyil. Bu da ermənilərin Türkiyə ilə iqtisadi əlaqələr qurmağa, mallar gətirməyə münasibətinin müsbət olduğunu göstərir.

İlqar Vəlizadə bu barədə fikirlərini belə izah edib: "Bu həmçinin atılan addıma erməni əhalisinin dəstək verdiyini göstərir. Sadəcə olaraq təəssüflər olsun ki, erməni siyasətçilər hələ də Türkiyə ilə münasibətlərdə spekulyasiya yaradır və Türkiyəyə qarşı əsassız iddialar irəli sürür. Ancaq erməni siyasətçilərin bu davranışlarına baxmayaraq, bu reyslərin açılması erməni xalqının maraqlarına uyğundur. Düşünürəm ki, Türkiyə-Ermənistan münasibətləri Ermənistanın Azərbaycana qarşı daha konstruktiv mövqe sərgiləməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşması halında inkişaf edəcək. Beləliklə Ermənistanın qatı millətçi və revanşist qüvvələri özlərinin sosial dəstək bazasını itirəcək".

***Turqay Musayev***

# "Tamaşa" öncəsi təxribat ARTİSTLİYİ

**Hər dəfə görüş öncəsi Ermənistanın bir təxribat törətdiyinə nəinki biz, ümumilikdə dünya ictimaiyyəti artıq öyrəncəlidir və bu hərəkətlərinin arxasında nələrin dayandığı da bəllidir. Bəllidir ki, ermənilər bununla vəziyyətin hələ gərgin olaraq qalması barədə təsəvvür formalaşdırmaq, münaqişənin davam etməsi təəssüratı yaratmaq, bununla da hansısa dövlətləri, xüsusən, Qərb ölkələrini, eləcə də ATƏT-in Minsk Qrupunun timsalında beynəlxalq təşkilatları bölgəyə dəvət etmək, nəticədə də öz həllini gözləyən məsələləri bacardıqca uzatmaq niyyətindədirlər. Ən azından qalib ölkə olan Azərbaycanın istədiyi şəkildə prosesin getməsinə mane olmaq üçün hər cür oyundan çıxan ermənilər bu dəfə də bir növ, təxribatlar törətməklə artistlik edirlər.**



Xatırladığımız kimi, Soçi görüşü öncəsi də Ermənistan-Azərbaycan sərhədində gərginlik və hərbi toqquşmalar müşahidə edildi. Daha dəqiq desək, Ermənistan tərəfi növbəti dəfə təxribat törətdi. Təbii ki, düşmən lazımca cavablandırıldı, susduruldu və yerinə oturduldu, amma hər bir halda ermənilər elə zənn etdilər ki, bununla nəyə isə nail olacaqlar. Lakin Soçi görüşündə heç nəyə nail ola bilmədilər, çünki bu cür təxribatlar belə, prosesin Azərbaycanın istədiyi məcrada getməsinə mane ola bilməzdi. Xüsusən, Rusiya ərazisində baş tutan görüşün nəticələrinə, bu nəticələrinin bizim maraqlarımıza uyğun olmasına ermənilər törətdikləri təxribatlarla mane ola bilməzdilər və belə də oldu. Ermənistan tərəfinin Soçi görüşü öncəsi bütün oyunları mənasız oldu və Azərbaycan öz istəklərinə nail oldu, görüşün nəticələri də bizim maraqlarımıza uyğundur.

Bilirik ki, 9 noyabr tarixində Soçidə keçirilməsi nəzərdə tutulan və məhz Rusiya tərəfindən planlaşdırılan görüşdən Ermənistan tərəfi imtina etdi və bunun ardınca da törətdiyi təxribatlara Azərbaycan tərəfindən tutarlı cavab aldı, hansı ki, bu cavab erməniləri öz ənənələri üzrə Avropaya, Qərbə yalvarmaq məcburiyyətinə qoydu. Bəli, Rusiyanın təşkilatçılığı, moderatorluğu ilə Soçidə keçirilməsi nəzərdə tutulan görüşdən imtina edən Ermənistan çarəsiz qalaraq bu dəfə Avropaya yalvarmağı çıxış yolu hesab etdi. Doğrudur, Qərbə belə bir estafeti verməyən Rusiya Brüssel görüşündən öncə öz moderatorluğu ilə 26 noyabr tarixində Soçidə Azərbaycan-Ermənistan görüşünü reallaşdırdı, amma bu tamam başqa müzakirə mövzusudursa da belə hadisələrə heç də təsirsiz ötüşən deyil. Yəni, ermənilər çox yaxşı bilirlər ki, Brüssel görüşünə razılıq vermələri fonunda rusları qıcıqlandırıblar və heç də bu görüş Moskvanın nəzarətindən kənarda qala bilməz.

Doğrudur, bir çox ekspertlər hesab edirlər ki, Brüssel görüşünü Paşinyan "öz meydançası" hesab edir. Bunu da həmin ekspertlər onunla izah edirlər ki, Fransanın timsalında Ermənistan orada güclü dəstəyə malikdir. Ola bilsin ki, rəsmi İrəvan özü də Brüssel görüşünə böyük ümidlər bəsləyə bilər. Paşinyan üçün növbəti dəfə ikiüzlülük etmək adi haldır və Avropanı proseslərdə iştirak etmək üçün dəvət etmək də ermənilərin planında ola bilər. Bəlkə, Rusiyanın təşkilatçılığı ilə Soçidə keçirilən görüşün ardınca yenə də təxribatlar törədib, ardınca Brüssel görüşünə yollanmağı planlaşdıran ermənilərin nəyə hazırlaşdıqları bəlli məələdir və bu da rusları növbəti dəfə qıcıqlandırmaya bilməz. Çünki, bir zamanlar böyük qardaş adlandırdıqları ruslar özləri də yaxşı bilirlər ki, Soçi görüşünün ardınca Brüsselə hazırlaşan Paşinyanın məqsədi Rusiyanın regiondakı proseslərə təsirini azaltmaq, hətta Qərb ağalarının Cənubi Qafqazda itirilmiş mövqelərini bərpa etmək çağırışı belə ola bilər. Yeri gəlmişkən qeyd edək ki, olsa da bu elə çağırış olaraq qala bilər və bu istəklərinin reallaşacağı inandırıcı görünmür, amma ən azından Paşinyan bir də öz simasızlığını ortaya qoyacaq. Avropada keçiriləcək görüş zamanı erməni baş nazirin hansı dona girəcəyini hər halda hamı yaxşıca izləyəcək. Bir sözlə, bütün dünya 15 dekabr tarixində Brüsseldə keçirilməsi nəzərdə tutulan görüşdə Paşinyanın, ümumilikdə ermənilərin "tamaşa" göstərəcəyini gözləyir. Bəllidir ki, indi də ermənilər "tamaşa" öncəsi artistlik edirlər təxribatlar törətməklə.

Nəzərə alsaq ki, Moskva tərəfindən hər şey lap əvvəldən Bakı və İrəvanla sıx əməkdaşlıq şəraitində hazırlanıb və onlar tərəfindən qəbul edilib, deməli, Brüssel heç vaxt prinsipial yenilik ortaya qoya bilməz. Ümumiyyətlə, hər iki tərəfi eyni vaxtda qane edən yeniliklər haqqında danışmağa belə dəyməz və ermənilər bu dəfə də qalib Azərbaycanın ədalətli, dəyişməz sərt mövqeyi ilə qarşılaşmalı olacaqlar. Təbii ki, belə olan təqdirdə, İrəvan Brüssel görüşündən sonra da razılaşmalara "təpik atacaq" və Paşinyana müxalif qüvvələr bu dəfə də onu "divara dirəyəcək". Küçə nümayişlərindən hakimiyyətə daşınan erməni baş nazir divara dirənən zaman hansısa oyunlara gedəcəyi də istisna edilmir, amma bu o demək deyil ki, Paşinyan əldə edilmiş razılaşmaları hansısa yolla, oyunlar oynamaqla dəyişmə imkanı qazana bilər. Bu mümkün deyil və ermənilər nə etsələr də razılaşmanın şərtləri dəyişəndirilə bilməz.

Doğrudur, Ermənistan bir-birinin ardınca müxtəlif görüşlərə, platformalara can atır. Fransanın timsalında ermənilər Avropa İttifaqının dəstəyinə ümid bəsləyir, amma bu çox uzun sürə bilməz. Ən azından Rusiya rəsmi İrəvanın hərəkətlərini yaxşıca izləyir və Qərb yönümlü olmaları fonunda ermənilərə öz istədikləri hansısa addımı atmağa imkan verməz. Moskvanın, "Bunlar nə vaxtadək davam edəcək", sualını verənə qədər ermənilərin bu ümidləri sadəcə ümid olaraq qala bilər və oyunlar da bu sual ünvanlanan zaman bitməlidir. Çünki, əvvəla Rusiya özünün Dağlıq Qarabağ münaqişəsi üzrə səylərini, həmçinin bütövlükdə regionda sülh və razılığın əldə edilməsi cəhdlarını Ermənistan tərəfinin zərbə altında qoyulmasına imkan verməz. Bu, Rusiyanın nüfuzunun ayaqlar altına alınması deməkdir ki, buna Moskvanın yol verəcəyi ağlabatan deyil. Özü də ermənilər artıq nəzərə almalıdırlar ki, Rusiyanın səbri tükənir və prezident Putin də sözün əsl mənasında onların ərköyünlüklərindən bezib. Bunun isə Ermənistan üçün nə demək olduğunu elə ermənilər özləri hamıdan yaxşı bilirlər. Bu baxımdan işğalçı ölkənin ərköyünlüklərinin belə sonu çatıb və bu erməni cəmiyyəti üçün də sirr deyil. Sadəcə, bədnam qonşularımız son artistlikləri edirlər ki, bəlkə nə isə qopara bildilər, amma bunun mümkünsüz olduğu qənaətinə gəlməyin də vaxtıdır.

Brüssel görüşü öncəsi Ermənistanın sərhəd təxribatları Paşinyanın iradəsi çərçivəsində həyata keçirilir və demək olmaz ki, bundan onun xəbəri yoxdur, yaxud məlumatsız, ya da narazıdır. Əksinə, erməni baş naziri özü də oyunun iştirakçısıdır və elə hesab edir ki, bundan başqa onun çıxış yolu yoxdur, çünki özünə müxalif qüvvələrdən bərk qorxur. Həmin qüvvələr isə bacardıqca aranı qarışdırmağa çalışırlar və yalnız buna ümid edirlər, çünki başqa ümid yeri də qalmayıb. Ötən il 44 günlük müharibə sonda Ermənistan tərəfinin kapitulyasiya sənədini imzalaması ilə başa çatıb və indi ermənilərin nə sənədə ümudləri qalmayıb, nə ikiüzlülüklərinin dəfələrlə şahidi olan "böyük rus qardaşlarına" güman yeri belə qalmayıb. Sözsüz ki, Qərb ağalarının da prosesdən kənarda qalması ermənilər üçün arzuolunan deyil. İndi "tamaşa" öncəsi təxribat artistliyi başda elə erməni baş naziri olmaqla, ermənilərin Qərb ağalarını prosesə cəlb etmək istiqamətində bəlkə də sonuncu variantıdır, çünki nə qədər şirnikləndirici olsa belə, Qərb yaxşı başa düşür ki, Rusiyanın, rus sülhməramlılarının olduğu bölgədə özünə yer edə bilməyəcək. Ermənistan isə bunu, bu həqiqəti, bölgədəki reallıqları, Azərbaycanın yaratdığı reallıqları qəbul edəcəyi zaman bu işğalçı ölkə üçün çox gec ola bilər və indi uzatmağa cəhd etdiyi delimitasiya, demarkasiya, sərhədlərin tanınması məsələsini, sülh sazişini də daha ağır şərtlərlə imzalamalı olar. Ən azından 44 gün davam edən müharibənin məntiqi nəticəsi olaraq daha ağır şərtlərlə razılaşmaq ermənilərin yaddaşında təcrübə olaraq həkk olunub və bunu nəzərdən qaçırmasınlar, yadda möhkəm saxlasınlar ki, dəmir yumruq öz yerində olduğu təqdirdə belə bir hal bir daha onlar üçün təkrarlana bilər.

***İnam Hacıyev***

# TƏHSİL EKSPERTİ AÇIQLADI

**"Uşaqlar təbiətən hər şey ilə maraqlanırlar və onlar ətraflarını araşdırmaq istəyirlər. Onlar üçün hər şey yenidir və ətrafda böyük bir dünya var, odur ki, valideynlər buna mane olmamalıdırlar. Valideynlər uşağın tam təhlükəsizliyini təmin etməlidirlər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Onun sözlərinə görə, uşağı həddən artıq strukturlaşdırmağa cəhd etməyin: "Lakin öyrənmək üçün bir çox imkanlar, məsələn, uşağa nəğmə oxumaq, kitab oxumaq, uşağı gəzintiyə götürmək - bax orada ağacdır, orada isə it var, maşın var, ev var.

Odur ki, bu cür şeylər çoxdur, lakin siz uşağa müdaxilə etməyin, çünki uşaqlar təbiətən hər şey ilə çox maraqlanırlar. Azyaşlı bir uşağı çaşdırmamaq üçün ardıcıllığın olması vacibdir. Ona görə də, bəzən bir valideyn ilə bir dildə danışmaq özünü doğruldur. Bəzən isə, bir fəaliyyətlə və bir dil yanaşması özünü doğruldur. Amma nəticədə uşaqlar özləri bunu ayırd edəcəklər və hər iki dili müvafiq şəkildə istifadə edəcəklər".

Kamran Əsədov sözlərinə belə davam edib: "Həyatlarının ilk illərində uşaqlar həssas qayğıya ehtiyac duyurlar. Onlara qayğıkeş mühit lazımdır. Onlara balaca uşağa köklənmiş valideynlər lazımdır. Valideynlər körpələrinin ilk müəllimləridir.

## "Uşağı həddən artıq strukturlaşdırmağa cəhd etməyin"



Valideynlər uşaqla danışanda, onu nəğmə, kitab oxuyanda, bu kimi stimullaşdırıcı təcrübələri yaradanda, öyrənmənin çiçəklənməsi baş verir - bütün bu şəbəkələr beyində inkişaf edir. Uşağın həyatının çox erkən illərində öyrənmənin bu təməlləri kritik əhəmiyyət təşkil edir, çünki onlar, həyat boyu öyrənmənin əsaslarını formalaşdırır.

Valideynlər övladına bütün bunları təmin edərlərsə, uşağın beyni inkişaf edəcək və olğunlaşacaq və uşaqlarımızdan istədiyimiz bütün potensialı həyata keçirəcək.

Valideyn,övladının təhsil prosesinə cəlb olunduğu zaman, şagirdin daha yüksək akademik davamiyyəti, həmçinin imtahanlarda və testlərdə daha yaxşı nəticəsi olur. Eyni zamanda, fəallıq göstəriciləri yaxşılaşır, şagirdin sosial bacarıqları inkişaf edir, onun hərəkətləri həm evdə, həm də məktəbdə pozitiv olur. Bunlar, şagirdlərə həm məktəbdə tədris müddətində, həm də gələcək iş fəaliyyəti prosesində təsir göstərən ən əhəmiyyətli amillərdir".

"Valideynlərin cəlb olunması" termininin mənası - həm evdə, həm də məktəbdə şagirdlərin nailiyyətləri və təhsillərinin yaxşılaşdırılması üçün, valideynlər və müəllimlər tərəfindən birlikdə və sonsuz daşınan məsuliyyətdir. O, şagirdlərin akademik nailiyyətlərinin yaxşılaşdırılmasına vahid güclə kömək etmək üçün valideynləri və müəllimləri birləşdirir. "Valideynlərin cəlb olunması" valideynlərin bir qayda olaraq hərtərəfli əlaqələrdə, şagirdin təhsil prosesində və məktəbdə keçirilən müxtəlif tədbirlərdə iştirak etməsi deməkdir. Bu zaman:

* Valideynlər, övladlarının təhsil prosesində əhəmiyyətli rol oynayırlar;
* Valideynlər məktəb tərəfindən planlaşdırılan tədbirlərdə iştirak edirlər;
* Valideynlər, övladlarının təhsil prosesinə tam hüquqlu tərəfdaş olaraq cəlb olunurlar. Onlar, uşaqların təhsili haqqında qərarların qəbul edilməsində də iştirak edirlər. "Valideynlərin cəlb olunması" valideynlər üçün aşağıdakıları ifadə edə bilər:
* İmkan daxilində məktəbin tədbirlərində daha çox iştirak etmək;
* Uşaq tərəfindən yaxşı yerinə yetirilmiş tapşırığın valideyn tərəfindən tərifləməsi və uşağın həvəsləndirilməsi;
* Məktəb üçün real tələblərin təyin olunması;
* Müəllimlərlə daimi görüşlərdə iştirak etmək və şagirdlərin inkişafını müzakirə etmək;
* Ev tapşırıqlarının yerinə yetirilməsində şagirdlərə kömək etmək; Direktorlar və müəllimlər üçün valideynlərin məktəb həyatına cəlb edilməsi aşağıdakıları ifadə edə bilər:
* Valideynlərin övladlarının inkişafı ilə bağlı müvafiq məlumatlarla təmin olunması;
* Valideynlərə məktəbdə keçirilən tədbirlər haqqında məlumat verilməsi;
* Şagirdlərin inkişafını müzakirə etmək məqsədi ilə daimi görüşlərin təşkil edilməsi.

Valideynlərin məktəb həyatına cəlb edilməsinin şagirdlərin uğur qazanması üçün xüsusi əhəmiyyəti var. Ailənin sosial-iqtisadi vəziyyətinin necə olmasından asılı olmayaraq, valideynin övladının təhsil prosesində iştirak etməsini şagirdin inkişafına böyük təsir göstərir. Tədqiqatlara əsasən, valideynləri tədris prosesində fəal olaraq iştirak edən şagirdlər daha yaxşı nəticələr əldə edirlər. Onlar, daha yaxşı qiymətlər alır, daha yüksək akademik nailiyyətlərə sahibdirlər, ev tapşırıqları daha keyfiyyətli şəkildə yerinə yetirilmiş olur. Onların davamiyyət göstəriciləri daha yüksəkdir və onlar pozitiv hərəkətləri ilə fərqlənirlər. Məktəbə qarşı daim xoş əhval-ruhiyyədə olurlar. Özlərinə və imkanlarına inamları var. Vaideynlərin cəlb edilməsi tədris müəssisələri tərəfindən də müsbət qiymətləndirilir. Tədris prosesində valideynlərin fəallığı məktəb mədəniyyətini zənginləşdirir və onun inkişafına kömək edir. Belə ki, daha yaxşı nəticələrə çatmaq üçün məktəb və müəllim valideynlərlə fəal əməkdaşlıqda maraqlı tərəf olmalıdır".

"Valideynlər uşağın təhsil prosesinə cəlb olunan zaman, ailənin sosialiqtisadi vəziyyətinin, etnik mənsubiyyətinin, valideynlərin təhsil səviyyəsinin necə olmasından asılı olmayaraq şagirdlər daha böyük nailiyyətlər əldə edirlər.

* Valideyini təhsil prosesinə cəlb edilmiş şagird, məktəbi daha uğurla bitirir, onun təhsilini davam etdirməsi üçün daha yaxşı imkanları və şərtləri olur;
* Statistik məlumatlara əsasən, əgər valideynin müəllimlərlə əlaqəsi yoxdursa və o, məktəbdə baş verən hadisələrlə maraqlanmırsa, onun uşağının akademik göstəriciləri başqa uşaqların akademik göstəricilərindən daha aşağı olur;
* Valideynlərin məktəb həyatına cəlb olunduqları zaman, şagirdlər məktəbə qarşı daha xoş münasibət bəsləyirlər və onların özlərinə və imkanlarına olan inancları daha yüksəkdir;
* Valideynləri məktəb həyatına fəal olaraq cəlb olunmuş şagirdlər nümunəvi hərəkətləri ilə seçilir və onlara qarşı tətbiq edilmiş intizam sanksiyalarının orta göstəricisi də digər şagirdlərlə müqayisədə daha aşağıdır;
* Məktəb həyatında fəal iştirak edən valideynlərin uşaqlarının müəllimlərlə və ailə üzvləri ilə daha yaxşı münasibəti olur.

Valideynlərin təhsil prosesinə cəlb edilməsi həm şagirdin nəticələrinin yaxşılaşdırılması üçün, həm də valideynin bacarıq və vərdişlərinin inkişafı üçün vacibdir. Bununla valideynin sosial, emosional və şəxsi xüsusiyyətləri dəyişir. Övladının təhsil prosesində iştirak etməklə valideyn:

* Öz övladına qarşı daha anlayışlı olur;
* Uşağın sosial, emosional və intelektual inkişafı üçün daha çox diqqət ayırır;
* Övladına qarşı daha qayğıkeş, daha az sərt olur və övladının nailiyyətlərini daha çox qiymətləndirir;
* Daha çox özünəinamlı olur və uşağın təhsil və tərbiyə prosesinə məmnumiyyətlə qoşulur
* Qərar qəbul edərkən özünə daha çox inanır;
* Öz bilik səviyyəsinin, bacarıq və vərdişlərinin yüksəlməsinə daha çox diqqət edir;
* Öz ailəsinin və övladının ehtiyaclarını qarşılaya bilmək üçün müxtəlif imkanlardan daha bacarıqla istifadə edir;
* Övladına öz fikirlərini və problemlərini daha dəqiq, daha tam söyləmək imkanı verir. Övladının müəllimləri ilə daha pozitiv əlaqələr yaradır;
* Uşağın vəziyyəti haqqında daha dəqiq məlumat əldə edir və onun problemlərini həll etmək üçün vaxtında ölçülər götürür

Bəzi valideynlər uşaqlarından birinin mütəmadi olaraq dərsləri ilə məşğul olduğunu, onu dərslərinə qarşı məsuliyyətli olması mövzusunda heç bir zaman xəbərdar etmək məcburiyyətində qalmadıqlarını, lakin digər uşaqlarının dərslə məşğul olmaları üçün xüsusi bir əmək sərf etmək məcburiyyətində qaldıqlarını söyləyirlər. Əslində iki övladın dərslə məşğul olması arasındakı fərqliliyin səbəbi motivasiyadır.

Məktəb dövrü maraqlı və yadda qalan olduğu qədər, həm də uzun və çətin bir prosesdir. Dərslərini vaxtlı-vaxtında, məsuliyyətlə yerinə yetirmək kimi bir işlə illərlə mütəmadi şəkildə məşğul olmaq heç də asan deyil. Bunun üçün yüksək motivasiyaya sahib olmaq lazımdır. Motivasiyası güclü olan şagirdləri valideynləri şanslı hesab edilə bilər. Çünki övladları ilə mütəmadi olaraq dərslə məşğul olmaq mövzusunda mübahisə etmək məcburiyyətində qalmırlar. Təbii ki, daxili motivasiyaya malik şagirdlərin də bəzən motivasiyası düşə bilər. Xüsusilə də istədikləri nailiyyəti əldə edə bilməyəndə öyrənmə istəkləri azala bilir. Lakin bu vəziyyət uzun çəkmir və doğru bir yanaşma ilə yenidən motivasiyanı yüksəltmək mümkün olur. Bəzən də yüksək motivasiyaya sahib şagirdlərin imtahan qayğısı motivasiyanı aşağı sala bilər. Belə hallarda valideynlərin övladları ilə xüsusi söhbətlər etməsi, onların bu qayğılarını azaltması tövsiyə edilir. Bir çox hallarda valideynlər əksinə olaraq övladlarının qayğılarını daha da artırmış olur.

Övladı xarici motivasiyaya ehtiyacı olan valideynlərin işinin daha çətin olduğunu söyləmək mümkündür. Bu halda uşaq adətən öz istəyi ilə dərsi ilə məşğul olmur, olsa belə, bir müddət sonra valideynin yanına gələrək "dərslərimi öyrənib bitirdim" deyir. Bir gün dərslə məşğul olub 3-4 gün kitab açmaq istəmir. Valideyn isə mütəmadi olaraq övladına "dərslərinlə məşğul ol" deməkdən bezir. Lakin işlərin daha da pisləşdiyini görüncə valideyn olaraq dözə bilməyib övladının dərs ilə məşğul olması üçün yenə də cəhd etməyə davam edir. Böyük bir ümidlə uşağın öz qərarı ilə həvəsli şəkildə dərsi ilə məşğul olmasını gözləyir.

Şagirdlər ilə keçirilən görüşlər nəticəsində bunu anlamaq olur ki, valideynlərin uşaqlarının dərs oxuması üçün yaxşı niyyətlə etdiyi bəzi cəhdlər uşaqların motivasiyasını nəinki artırmır, hətta onun daha da aşağı düşməsinə səbəb olur".

***Ayşən Vəli***



## "Hər yazan jurnalist ola bilməz"

**"Media haqqında" qanun layihəsinin ictimai müzakirəsinin davam etməsi çox müsbət haldır. Ekspertlər bu mövzu ilə bağlı müxtəlif təkliflər, iradlar, tövsiyələr bildiriblər. Mənim qənaətimcə, bu qanun medianın inkişafına dəstək, jurnalistika sahəsində bir sıra problemlərin həllinə səbəb olacaq. Digər tərəfdən, cəmiyyətdə gedən proseslərin dinamikasına təsir edəcək". Bunu MQF-nin prezidenti Rauf Zeyni SİA-ya açıqlamasında bildirib.**

Onun sözlərinə görə, vaxtı ilə qəbul edilmiş KİV haqqında qanun cəmiyyətin, medianın indiki inkişaf dinamikasına cavab vermirdi: "Bu baxımdan qanunun yenilənməsi zəruri idi. "Media haqqında" Qanundan biz nə gözləyirik" sualına cavab olaraq onu deyə bilərəm ki, bu qanun öncə medianın iqtisadi problemlərinin həllinin tapılmasında mühüm rol oynayacaq. Çünki iqtisadi faktor çox zəruridir. Digər tərəfdən, jurnalistika sahəsində hərc-mərcliyin aradan qaldırılmasına, yəni jurnalist kimdir sualına cavab tapacaq".

R.Zeyni onu da bildirdi ki, hər yazan jurnalist ola bilməz: "Bu baxımdan, vətəndaş jurnalistikası məsələsinə bir aydınlıq gətiriləcək. Nəhayət, yeni media quruluşlarının, saytların, İnternet TV-lərin fəaliyyəti üçün hüquqi baza yaranacaq. Digər tərəfdən, sosial şəbəkələrdə dərinləşən problemlərin, təhlükəli tendensiyaların aradan qaldırılmasında yeni qanun mühüm bazaya çevrilə bilər. Dünya üçün təhlükəyə çevrilən sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi çətin olsa da, bunun müəyyən bir hüquqi sənədlərdə həlli ilə bağlı addım atılmışlar. Düşünürəm ki, müəyyən dəyişiklikdən sonra Azərbaycan Respublikasının "Media haqqında" qanunu xeyli təkmilləşəcək. Bu da cəmiyyətimiz, müasir və milli mediamız üçün, jurnalistikamız üçün effektli olacaq".

***Gülyana***

"Mina-sürprizlər":

# Erməni terrorizminin yeni forması

Azad olunmuş ərazilər erməni terrorçularından təmizlənsə də, erməni terroru minalar şəklində hələ də can almağa davam edir. Şuşanın Daşaltı kəndində daha iki şəxsin mina qurbanına çevrilməsi göstərir ki, bu gün öz doğma yurd-yuvalarına dönməyi səbirsizliklə gözləyən minlərlə insan mina təhlükəsi ilə üz-üzədir. Bu Ermənistanın məqsədli şəkildə Azərbaycanın daha çox dinc sakinini öldürmək istəməsinin bariz nümunəsidir. Özü də ənənəvi erməni üsulu ilə - altdan tank əleyhinə, üzərindən isə piyada əleyhinə mina qoymaqla daha çox itkilərə nail olmağa çalışırlar. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərdə 2020-ci il noyabrın 10-dan bu günədək minaya düşmələri nəticəsində əsasən mülki şəxslər olmaqla 180-dən çox şəxs həlak olub və ya yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə keçən il noyabrın 11-dən cari il noyabrın 22-dək, ümumilikdə, 10 455 piyada əleyhinə, 4640 tank əleyhinə mina, 12 637 partlamamış hərbi sursat (PHS) aşkarlanıb. Bu müddətdə, ümumilikdə, 62 855 782 kv.m (6286 ha) ərazi mina və PHS-lərdən təmizlənib.

Qeyd edək ki, bu günədək Ermənistan tərəfindən təqdim olunmuş minalanmış ərazilərin xəritələri qeyri-dəqiqliyi ilə seçilib. Buna son nümunə kimi ötən həftə işğaldan azad olunan ərazilərin mina sahələrinin formulyarlarının təqdim edilməsini göstərmək olar. ANAMA-nın rəsmi açıqlamasında deyilir ki, mina sahələrinin formulyarlarında adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin təqdim edilmiş formulyarlarla ilkin tanışlıq zamanı onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratı yaradıb. Daha əvvəl Ağdam, Füzuli və Zəngilan rayonlarına dair verilmiş mina sahələri üzrə məlumatların da dəqiqliyi 25 faiz təşkil edib. Bu cür cinayətkar düşmənçilik mövqeyinin, arzuolunmaz siyasi xəttin tutulmasında əsas məqsədlərdən biri işğaldan azad olunmuş ərazilərdə dinc həyatın bərpasına, insanların öz yurdlarına qayıtmasını mane olmaq, bölgədə hərbi gərginliyin aradan qalxmasına imkan verməməkdir. Əslində bu hal yeni deyil. Ermənistanda bütün hakimiyyətlər dövründə daim dinc sakinlər və mülki şəxslər hədəf götürülüb. Azərbaycan xalqı yaxın keçmişdə ardıcıl şəkildə dinc əhalinin raket atəşinə tutulmasını yaxşı xatırlayır. Döyüş meydanında Azərbaycan Ordusu ilə bacarmayan işğalçı ölkənin ordusu bunun əvəzini həmişə dinc insanlardan çıxmağa çalışıb. Bu gün də eyni proses baş verir. Görünür, Ermənistan Türkiyəyə və Azərbaycana qarşı nifrət üzərində qurulmuş milli ideologiyasını dəyişmək istəmir. Qeyri-dəqiq xəritələr, ağır texnikanın keçmədiyi ərazilərdə - məsələn, meşələrdə - tank əleyhinə mina "tələlərinin", ölüm ehtimalını artıran "mina-sürprizlərin" quraşdırılması - bütün bunlar Ermənistanın terror siyasətini davam etdirməsinin nəticəsidir. Qəribəsi odur ki, beynəlxalq təşkilatlar ardıcıl mina faciələrinə baxmayaraq, İrəvana heç bir təzyiq göstərmirlər.Çünki, mina terrorunun həyata keçirilməsi və minalanmış ərazilərin xəritələrinin gizlədilməsi hərbi cinayət kateqoriyasına aid siyasi sabotaj olmaqdan çox, açıq terror təhdididir. Ona görə də, bu məsələ dünya ictimaiyyətini ciddi şəkildə narahat etməlidir. Müvafiq beynəlxalq təşkilatlar, mühüm təsir imkanlarına malik olan geosiyasi güc mərkəzləri, dünya liderləri müvafiq reaksiyanı verməli, daha ağır nəticələri önləmək üçün siyasi iradə nümayiş etdirməlidirlər. Çünki, bu dövlət 100 ildir ki, terrorla, siyasi şantajla, təhdidlə dünyadan nəsə tələb edir. Bu "nəsə"lər bir gün həmin qapıları da döyəcək.



Mina partlayışlarının davamlı xarakter alması və minalanmış ərazilərin dəqiq xəritələrinin gizlədilməsi hərbi cinayət kateqoriyasına aid siyasi sabotaj olmaqla yanaşı, həm də açıq terror təhdididir

Qeyd edək ki, ötən il, müharibə bitəndən bir neçə gün sonra Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) rəsmiləri işğaldan azad edilmiş ərazilərin tamamilə minalardan təmizlənməsi üçün azı 10-15 il müddətin lazım olduğunu bildirmişdilər. Qurumdan bildiriblər ki, ilk öncə yaşayış yerləri minalardan təmizlənəcək. Ərazi yaşayış üçün təhlükəsiz sayıldıqdan sonra insanlar öz yurd-yuvalarına qayıda biləcək. "Amma otlaqlar, əkin yerləri, meşə və dağ əraziləri də minalardan təmizlənməlidir ki, bunlar da illərlə vaxt aparacaq", - deyə qurum rəsmisi İdris İsmayılov bildirmişdi. "Landmine Monitor Report" nəşrinə görə, Qarabağda minalanmış ərazilərin ümumi sahəsi 350 kv km-dən 830 kv km-dək ola bilər. Azərbaycanda 2013-2017-ci illərdə 19,44 kvadrat km ərazi minalardan təmizlənib, bu isə ildə orta hesabla 4-5 kvadrat km ərazinin təmizlənməsi deməkdir. Dərgi yazır ki, Azərbaycan hökumətinin və Dünya Bankının birgə araşdırması nəticəsində 2007-ci ilin sentyabr ayında, işğal olunmuş torpaqların minalardan təmizlənməsinə o dövrün qiymətləri ilə 600 milyon ABŞ dolları tələb olunurdu.

***Sevinc Azadi***

# Ailədə büdcəni kim idarə etməlidir?

## PAYTAXT SAKİNLƏRİNİN BAXIŞI

**Ailə büdcəsinin idarə olunması, düzgün bölüşdürülməsi böyük əhəmiyyət kəsb edən məsələlərdən biridir. Çünki bəzi ailələr var ki, onlar az büdcə ilə belə ailəni dolandırır və xoşbəxt yaşamağı bacarırlar. Bəzən isə ailələrin yetərli gəlirləri olsa belə düzgün idarə olunmadığı üçün ailədə problemlərə səbəb ola bilir. Bu zaman da ortaya büdcəni kim idarə etsə daha yaxşı olar kimi suallar çıxır. SİA olaraq şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışdıq:**

**Şəhər sakini Vüqar Almazov:** "Ailə büdcəsini hər halda qadın daha düzgün və səmərəli idarə edə bilər. Çünki qadın birincisi anadır, ikinci olaraq isə qadın evdə olan problemləri daha yaxşı görə bilir. Kişi isə daha çox işdə olduğu üçün evdəki problemləri hər zaman tam nəzarətdə saxlaya bilmir. Düzdür, indiki dövrümüzdə qadınlar da işləyir, amma hər bir halda ailənin hər bir fərdi evdəki problemlərdən xəbərdar olur. Hətta mənə elə gəlir ki, xanımın pulu yığması nəticəsində bir ildən bir istirahətə getmək belə mümkün olur".



SORĞU

**Şəhər sakini Gülnaz Əliyeva:** "Zənnimcə, ailə büdcəsini evdə əsas idarə edən xanımdır. Amma həm kişi, həm qadın ailə büdcəsini nəzarət altında saxlamağı bacarmalıdır. Adətən qadınlar daha çox ekonomiya etməyi bacardıqları üçün bu yük də onların üzərinə düşür. Qadın ümumi olaraq büdcənin nəyə sərf olunmasını tənzimləməklə bərabər, həm də kənarda pul toplanmasını da təmin etməyi bacarır. Bu isə çox vacibdir. Çünki elə zəmanədə yaşayırıq ki, hər an başımıza hər şey gələ bilər. Buna görə də büdcənin hara xərcləndiyini daimi nəzarətdə saxlamaq lazımdır".





**Şəhər sakini Bəxtiyar İsmayılov:** "Əgər, biz ailə büdcəsi ifadəsini işlədiriksə deməli bu xüsusi kimdəsə deyil hamıda olmalıdı. Yəni hər kəs buna diqqət edərək, nəzarətdə saxlamalıdır. Burada hər kəsin üzərinə yük düşür. Mən deyərdim ki, Azərbaycanda büdcəni 70-80 faiz qadınlar idarə edir. Çünki kişi işdə olur və qadın daha çox ailə problemləri ilə məşğul olur. Buna görə də ailədə kimin nəyə ehtiyacı olduğunu da qadınlar daha yaxşı bilir".

**Şəhər sakini Səyyarə Heydərova:** "Bir hüquqşünas olaraq deyə bilərəm ki, məhkəmələrdə kişilər çox vaxt qadınların bütün pulun onlarda olduğunu qeyd edərək, ayrılmaq istəyirlər. Onlar bildirirlər ki, biz işləyirik, bütün gün evdən kənarda oluruq, uşaqları məktəbə, bağçaya aparırıq, amma ay sonunda qadın bütün maaşının ona verilməsini tələb edir. Bu isə ailədə artıq problemlərin yaranmasına gətirib çıxarır. Mənim fikrimcə də ailə büdcəsi kişidə olmalıdı. Onun nəzarət etməsi daha məqsədəuyğundur".



**Şəhər sakini Zaur Hüseynov:** "Ailə büdcəsinin idarə olunması ümumi bir məsələdir. Buna həm qadın, həm də kişi nəzarət etməlidir. Hətta evdə uşaqlar işləyirlərsə, burada onların da iştirakı mühümdür. Hər hansı bir şey alınmalıdırsa, bunu hər kəs birgə müzakirə edib, büdcəni nəzərə alıb sonra addım atılmalıdır".



**Şəhər sakini Rəna Mehdiyeva:** "İndiki cavanlara qalsa böyüklərdən məsləhət alamadan büdcəni hər yerə sovurarlar. Amma nəzərə almaq lazımdır ki, ailədə böyüklər varsa onlar büdcəni idarə etməlidirlər. Çünki, onların bir çox mövzuda olduğu kimi bu mövzuda da təcrübəsi daha çoxdur. Təbii ki, qadınla kişi arasında isə bu məsuliyyət qadının üzərinə düşür. Biz öz ailəmizdən də bu cür görmüşük. Hər zaman atamız işləyib, pulu isə anamız idarə edib".



**Şəhər sakini Güllü** Hüseynxanova: "Ailə büdcəsini evin kişisi idarə etməlidi. Çünki bütün ağırlıq kişinin üzərində olur. Qadın isə ev qadını olmalı, evin işləri uşaqların tərbiyəsi ilə məşğul olmalıdır".



***Səbinə Hüseynli***

# YAP ildən-ilə öz sıralarını genişləndirərək xalqın partiyasına çevrilib

**Dekabrın 13-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatı Məhəmməd Hadi küçəsi 63A, Səməd bəy Mehmandarov küçəsi 78, Səməd bəy Mehmandarov küçəsi 86 və Əliağa Şıxlinski küçəsi 59 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri dəyərləndirilib.**

Yığıncaqlarda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə tədbirlərin müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anım gününə təsadüf etdiyini bildirib və qeyd edib ki, Ümummilli Lider Azərbaycan xalqı üçün dövlət yaratdı və xalqın dövlətin ətrafında birləşməsi üçün yeganə doğru azərbaycançılıq ideologiyasını formalaşdırdı: "Ulu öndər Heydər Əliyev, eyni zamanda, xalqın böyük etimadını qazanan Yeni Azərbaycan Partiyasını (YAP) yaratdı. YAP-ın yaranmasından az müddət sonra Ümummilli Lider xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. 1995-ci ildə parlament seçkilərində YAP öz liderinin etimadını doğrultdu. Yeni Azərbaycan Partiyası təkcə ölkənin deyil, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. YAP həm monolit, həm də uğur partiyasıdır."

V.Rəhimzadə vurğulayıb ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin Sədrliyi ilə uğurlu fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyası ötən 30 ildə tarixi əhəmiyyətli uğurlara imza atıb: "Partiya tarixin ciddi sınaqlarından çıxaraq bu illər ərzində inkişaf edib, möhkəmlənib, ildən-ilə öz sıralarını genişləndirərək xalqın partiyasına çevrilib. Bu gün böyük inamla qeyd edirik ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə






ölkəmiz dayanıqlı iqtisadi inkişafı ilə dünyanın diqqətindədir. Hazırda ölkəmizin həyatında yeni dövrün başlanğıcı kimi dəyərləndirilən işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri Azərbaycanın malik olduğu iqtisadi və maliyyə imkanlarının təqdimatında əhəmiyyətli rol oynayır."

YAP Xətai rayon təşkilatının sədri ötən 18 ilin ölkəmiz və bölgəmiz üçün həlledici illər olduğunu diqqətə çatdıraraq qeyd edib ki, xüsusilə son illərdə respublikanın həyatında bir çox vacib hadisələr baş verib: "Təbii ki, bunların arasında ən möhtəşəmi 30 illik həsrətə son qoyularaq düşmən tapdağı altında inləyən torpaqlarımızın yağılardan xilas edilməsi, ərazi bütövlüyümüzün bərpa edilməsi oldu. Vətən müharibəsində qazanılan parlaq Qələbə ilə tarixi ədalət bərpa edildi. Əlbəttə ki, Qələbənin əldə edilməsini şərtləndirən amillər çoxdur. Ən əsas amillərdən biri budur ki, ancaq iqtisadi cəhətdən güclü olan dövlət öz güclü ordusu və müasir silahları ilə cəmi 44 gün ərzində düşmənin 30 il ərzində möhkəmləndirdiyi istehkamları, tələləri asanlıqla dəf edərək Zəfər qazana bilər."

Vüqar Rəhimzadə yeni reallıqlara uyğun olaraq Yeni Azərbaycan Partiyasının qarşısında dayanan vəzifələrin icrası istiqamətində Xətai rayon təşkilatının xüsusi fəallıq nümayiş etdirdiyini bildirib.

Sonra hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb. Cəmilə Əliyeva Məhəmməd Hadi küçəsi 63A ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Nurlan Allahverdiyev sədr müavini, Nurqələm Bayramova Səməd bəy Mehmandarov küçəsi 78 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Aynur Qəmbərova sədr müavini, Şəhanə Əhmədova Səməd bəy Mehmandarov küçəsi 86 küçəsində yerləşən ərazi partiya təşkilatının sədri, Sevinc Orucova sədr müavini, Zöhrə Mehdiyeva Əliağa Şıxlinski küçəsi 59 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Gülşən Fərzəliyeva isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.



# Media haqqında yeni qanunun mahiyyəti nədən ibarətdir?

Bildiyimiz kimi, Azərbaycan Respublikasında "Media haqqında" yeni qanun layihəsi hazırlanıb. Sənəd media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Məsələ ilə bağlı SİA-ya açıqlamasında "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı fikirlərini qeyd edib. Onun sözlərinə görə, Azərbaycanda son dəfə kütləvi informasiya vasitələri haqqında qanun 1999-cu ildə qəbul olunub. 1999-cu ildən bu zamana kimi bu qanuna kifayət qədər dəyişikliklər edilib: "Qanuna yeni çalarlar gəlib və yeni media sistemi formalaşıb: "Artıq saytlar və "Youtube" kanalları meydana çıxır və ümumiyyətlə media sferasının hüquqi tənzimlənməsində boşluqlar var idi. Bu boşluqların aradan qaldırılması üçün də yeni qanuna ehtiyac var idi və bu qanun layihəsi də artıq müzakirədədir".

***Ayşən Vəli***

# Bir sıra qruplar Paşinyana qarşı təzyiqlər göstərməyə çalışır

***"Əlbəttə ki, bu təxribatların arxasında yenə Ermənistan tərəfi dayanır. Ermənistan tərəfinin məqsədləri bütün imzalanmış sənədlərdə, bəyanatlarda qəbul edilmiş razılaşmaları pozmaqdır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Sahil İskəndərov bildirib. Onun sözlərinə görə, Ermənistanın daxilində baş qaldıran bir sıra qruplar Paşinyana qarşı təzyiqlər göstərməyə çalışır və Ermənistan ordusuna rəhbərlik edən Paşinyanın atacağı addımların qarşısını almaq üçün, yəni razılaşmalara mane olmaq üçün bu cür təxribatlar törədilib: "Sözsüz ki, bunun arxasında ilk növbədə sərhədlərin delimitasiyasına və demarkasiyasına mane olmaq, ikinci bir tərəfdən isə Zəngəzur dəhlizinin işə salınması məsələsini yubatmaq dayanır.***

Ermənistan tərəfi Brüsseldəki görüşdə öz siyasətinə dəstək qazanmaq ümidi ilə bunları edir. Amma düşünürəm ki, regionda yeni reallığı formalaşdırmış Azərbaycan, Türkiyə və Rusiya buna imkan verməyəcək. Ermənistanın bu təxribatları yanlız Azərbaycanın deyil, həmçinin Rusiyanın və Türkiyənin də maraqlarına ziddir. Həmçinin Ermənistan ona dəstək ola biləcəyini hesab etdiyi İran İslam Respublikası da "3+3" formatını dəstəkləyir. Yəni artıq İran belə Ermənistana hər hansı bir yardım göstərməyəcək. Ermənistan tərəfi bu cür təxribatlara son verməlidir. Həmçinin Ermənistan həm 10 noyabr 2020-ci il, həm də 11 yanvar 2021-ci il üçtərəfli bəyannamələrində nəzərdə tutulan bütün imzaladığı öhdəliklərə əməl etməlidir və eyni zamanda Soçi görüşündə Ermənistan öz üzərinə götürdüyü öhdəliklərə əməl etməlidir. Bu baxımdan Ermənistanın bütün bu təxribatları, destruktiv mövqeyi və məqsədləri öz təsdiqini tapmayacaq. O, gec-tez bununla barışmalı olacaq. Moskvada keçirilən XİN müavinlərinin üçtərəfli görüşü də məhz Ermənistanın destruktiv mövqedə çıxışı etməsi səbəbilə müsbət nəticə verməyib. Ermənistan tərəfi yenə də sərhədlərdə hər hansı bir hərbi toqquşma yaratmağa çalışacaq. Eyni zamanda düşünürəm ki, əsas məqsədlərindən biri də bu və ya digər şəkildə Azərbaycanla Rusiya arasında kiçik də olsa hərbi toqquşma yaratmaqdır və bununla da Ermənistan Rusiyanı indiki mövqeyindən çəkindirmək istəyir. Çox güman ki, bu baş verməyəcək. Çünki Azərbaycan öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Sərhədlərin delimitasiyası və demarkasiyası məsələsi isə Ermənistan hansı təxribatları törətdirsə-törətsin yenə də öz təsdiqini tapacaq. Ermənistanın əsas məqsədi həm demarkasiya və delimitasiya məsələsini yubatmaq, həm də Zəngəzur dəhlizinin açılmasının qarşısını almaqdır".



***Abutel İlhamqızı***

# “MEDİA” haqqında qanun layihəsi müstəqil medianın inkişafında növbəti yenilikdir

Yarandığı gündən mütərəqqi ideyaların carçısı kimi çıxış edən Azərbaycan mətbuatı hər zaman mütərəqqi ideyaların tərənnümçüsü olub. Xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini verən mətbuat maariflənmədə, milli düşüncəsinin formalaşmasında, mədəniyyətimizin, mənəvi dəyərlərimizin gələcəyə daşınmasında mühüm rol oynayıb, Azərbaycanı müstəqilliyə aparan yolda fəal iştirak edib. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda media demokratik cəmiyyətin tərkib hissəsi kimi inkişaf yolu keçib. Xüsusilə, Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyə başlaması ilə mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi medianın yüksəlişinə xidmət edən amillər oldu.Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində isə kütləvi informasiya vasitələrinin fəaliyyətində dövrün çağırışlarından irəli gələn yeni keyfiyyət mərhələsi başladı. Bu dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib.



Bu, həm də məhz dövlətlə birlikdə güclənmək və güclü olmaq konsepsiyasıdır

### “Media haqqında” Qanun layihəsinin ictimai müzakirəsi ilə bağlı fikirlərə münasibət bildirdi

Medianın İnkişafı Agentliyi (MEDİA) ”Media haqqında” Qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı bir sıra media nümayəndələri tərəfindən ifadə edilən fikirlərə münasibət bildirib. Məlumatda qeyd olunub ki, ”Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 9.2-ci maddəsində normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsinin açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla biləcəyi göstərilir.”İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edildiyi təsbit olunub. ”İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun 29.1.10-cu maddəsində isə informasiya sahibinin normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan onları açıqlamaq vəzifəsi müəyyən edilib. Qeyd olunan normaların məzmunundan göründüyü kimi qanun layihələrinin, o cümlədən ”Media haqqında” Azərbaycan Respublikası Qanunu layihəsinin ictimai müzakirəsinin təşkil edilməsi normayaratma orqanının, yəni Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir, müvafiq layihələr ya razılaşdırılmaya, ya da təsdiq olunmağa göndərildiyi andan açıqlanmalı olduğundan Milli Məclis bu istiqamətdə müddəaların yerinə yetirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq ”Media haqqında” qanun layihəsini açıqlamış, onu media nümayəndələrinin, ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının və bu məsələdə ictimai marağı olan digər şəxslərin müzakirəsinə təqdim edib. Məlumat üçün bildiririk ki, hal-hazırda müvafiq qanun layihəsinin mətni ictimaiyyətin geniş müzakirəsindədir və onun ayrı-ayrı normalarının mahiyyəti, məqsədəuyğunluğu ətrafında çoxsaylı media nümayəndələri və ekspertlərini əhatə edən qarşılıqlı fikir mübadiləsi aparılmaqdadır”, - məlumatda bildirib.

### “Media haqqında” qanun layihəsində jurnalist fəaliyyətinin təminatları açıqlandı

Qanun layihəsində jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etməsi yolverilməz olması öz əksini tapıb. Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş məlumatların toplanması, hazırlanması, redaktə və istehsalı, ötürülməsi, habelə həmin məlumatlara dair fikir bildirilməsi (şərh verilməsi) ilə bağlı jurnalistlərin təqib edilməsi və onlara təzyiq göstərilməsi yolverilməzdir. Jurnalistlər müstəqillik, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər.

### Media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşdi

”Media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşib”. Bu, ”Media haqqında” qanun layihəsində əksini tapıb. Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər:

- media subyektlərinə dövlət orqanları (qurumları) tərəfindən rəsmi elan və sosial reklamların sifarişi;
- media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlər üzrə layihələrdə iştirakı;
- maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;
- sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanmalıdır.

### Jurnalistlərə 3 illik vəsiqə veriləcək

Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi veriləcək. Bu, ”Media haqqında” qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, bu, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici jurnalistlərə şamil edilmir. Xarici jurnalistlər Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərmək üçün əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etməlidirlər. Onlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən razılıq verildikdən sonra fəaliyyət göstərə bilərlər. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti 3 ildir. Jurnalist vəsiqənin etibarlılıq müddəti bitdiyi gündən ən geci 3 iş günü müddətində həmin vəsiqəni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verməklə yenidən jurnalist vəsiqəsinin alınması üçün müraciət etmək hüququna malikdir. Əmək müqaviləsinə xitam verilmiş jurnalist sonuncu iş günündə öz vəsiqəsini işəgötürənə (media subyektinə) təhvil verməli, media subyekti isə həmin vəsiqəni təhvil aldığı gündən ən geci 3 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məhv edilməsi üçün təqdim etməlidir. Fərdi olaraq müəllif hüquqları əsasında fəaliyyət göstərən jurnalistlər Media Reyestrindən çıxarıldığı gündən ən geci 3 iş günü müddətində jurnalist vəsiqəsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məhv edilməsi üçün təqdim etməlidir.

### Media qurumunun bu hallarda fəaliyyətinə xitam veriləcək

Azərbaycanda çap mediası və onlayn media subyektinin fəaliyyətinə xitam veriləcəyi halları müəyyənləşib. Bu, ”Media haqqında” yeni qanun layihəsində əksini tapıb. Çap mediası və onlayn media subyektinin fəaliyyəti və media məhsullarının yayımlanması məhkəmənin qərarı ilə bu Qanunun 65.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müvəqqəti dayandırılır, bu Qanunun 65.4-cü maddəsində nəzərdə tutulmuş hallarda isə onların fəaliyyətinə xitam verilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı hallarda çap mediası və onlayn media subyektlərinin fəaliyyətinin 2 (iki) ay müddətinədək dayandırılması barədə məhkəmə qarşısında iddia qaldırır: Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, habelə ali təhsili olmayan şəxs idarəetmə orqanının rəhbəri vəzifəsinə təyin edildikdə; Media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati tənbeh almış şəxs eyni xətanı inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətdikdə; Çap mediası və onlayn media subyektləri bu Qanunun 13.1-ci, 13.2-ci, çap mediası subyektləri isə həmçinin bu Qanunun 14.1-ci maddəsinin tələblərinin pozulmasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən il ərzində 3 (üç) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntuları təkrar törətdikdə; Çap mediası və onlayn media subyektinin fəaliyyətinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsi (bu Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) aşkar edildikdə; Bu Qanunun 63.2-ci maddəsində nəzərdə tutulan pozuntular aşkar edildikdə.

Bir sözlə, bünövrəsi 1875-ci ilin 22 iyulunda ”Əkinçi” qəzetinin nəşri ilə qoyulan Azərbaycan milli mətbuatının keçdiyi tarixi yol xalqımızın şərəf salnaməsidir. Və bu gün ”Media haqqında” qanun layihəsi media mühitini sağlamlaşdıracaq, Reyestr jurnalistlərin və media subyektlərinin dairəsini müəyyənləşdirməklə onların inkişafına dəstək verməyə imkan verəcək.

**RƏFİQƏ KAMALQIZI**

# HEYDƏR ƏLİYEV - MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİ DAİM UCA TUTAN LİDER



**Xalqımızın Ümummilli Lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 18 il ötür. Lakin buna baxmayaraq, bir əhəmiyyətli amil hər zaman mövcudluğunu qorumaqdadır: O, bu gün də, gələcəkdə də Azərbaycan xalqının qəlbində yaşayacaq, yaşadılacaq. Çünki öz müqəddəs əməli sayəsində Vətəni, xalqı uğrunda yorulmadan çalışmış Dahi Şəxsiyyət, Fenomen İnsan Heydər Əliyev ömrünü dövlətçiliyin inkişafı, Azərbaycanın tərəqqisi üçün şam kimi əritdi. Onun bir amalı var idi - qurduğu mütərəqqi dövləti beynəlxalq aləmdə tanıtmaq, lider ölkələrdən birinə çevirmək. Və bu amal gerçəkliyə çevrilib. Çünki Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir.**

Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Tək 12 dekabr günündə deyil, adi vaxtlarda da insanlar Fəxri xiyabana gedərək onun məzarını ziyarət edir, ruhu qarşısında baş əyirlər. Ulu Öndərin əbədiləşən



*HƏMİD PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən*

ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz.

## 1969-CU İLİN TARİXİ İYUL PLENUMU- HEYDƏR ƏLİYEVİN RESPUBLİKA RƏHBƏRİ TƏYİN EDİLMƏSİ İLƏ AZƏRBAYCANIN TARİXİNDƏ SÜRƏTLİ İNKİŞAF DÖVRÜ BAŞLAYIB

1969-cu ilin tarixi iyul plenumu - Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirilib.

Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olub. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar.

17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üçrəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqillik uğrunda mübarizə tariximizin ən parlaq səhifəsidir və bununla da milli azərbaycançılıq ideologiyasının inkişaf dövrü başlandı. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu, bu yolda heç bir çətinlikdən, qadağadan qorxub çəkinmədi. Yalnız xalqına, millətinə sonsuz sədaqəti, məhəbbəti olan liderlər belə qətiyyətli addımlar atmağa qadirdilər.

## 1993-CÜ İL 15 İYUN - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

Bu, o illər idi ki, XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşmişdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

## QURTULUŞDAN İNKİŞAFA: MÜDRİK SİYASƏTİN UĞURLU NƏTİCƏLƏRİ

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi.

Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi, bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

## HEYDƏR ƏLİYEVİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCAN

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb.

Ulu Öndərin Anım gününü qeyd etdiyimiz bu günlər tarixi günlərdir. Bu günlər Azərbaycan xalqı dövlətçilik tariximizin ən şərəfli səhifələrinin yazılmasına şahidlik edərək Zəfər gününü qeyd edir. Ümummilli Liderimizin torpaqlarımızın işğaldan azad olunması istiqamətində əsasını qoyduğu işin Onun layiqli davamçısı olan möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən uğurla başa çatdırılması zəngin dövlətçilik ənənələrinə malik Azərbaycanın ən böyük qələbəsidir. Xalq-iqtidar-ordu birliyi şanlı qələbəmizi, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həllini təmin etmiş oldu. Nə qədər ki Azərbaycan xalqı var, ulu öndərimizin parlaq xatirəsi daim qəlbimizdə yaşayacaq, onun mübariz əməlləri yüz illər bundan sonra da nəsillərə örnək olacaqdır.

# Siyasi reneqatların yeni xəyanət marafonu



**Tarixin hər bir mərhələsində siyasi reneqatlara, ”5-ci kolon”a rast gəlmişik. Çox təəssüflər olsun ki, milliliklərini, dinini, dövlətini, xalqını sataraq düşmən düşərgəsinə keçənlər, şəxsi maraqları naminə dövlətçilik ideallarını düşmənə kapitulyasiya edənlər bu gün də sıralarımızda var.**

Hazırda biz onları Sevinc Osmanqızı, Məhəmməd Mirzəli, Emin Hüseynov, Qənimət Zahid, Əli Kərimli və s. kimi tanıyırıq. Əsas məqsədləri də nə olur-olsun, şəraitdən asılı olmayaraq, onlara verilmiş siyasi tapşırığı yerinə yetirmək, haqq-ədalət yolunda olan xalqı, dövləti zərbə altına salmaqdır. Xüsusilə də, istehza və təhqir onların əsas manipulyasiya alətləridir. Öz çirkin siyasi mübarizəsini yalan, böhtan, təhqir və istehza üzərində qurmuş radikalların tək amacı ölkə daxilində vətəndaş qarşıdurmasının yaradılmasıdır. Məhz, bu cür silahlandırılmış siyasi reneqatlardan ibarət ”5-ci kolon” Azərbaycan dövlətinin və xalqının Zəfərindən sonra xüsusilə radikallaşıb, açıq düşmənçilik fazasına keçiblər.

Təsəvvür edin, bir zamanlar azərbaycanlıları ”xuliqan, bandit” adlandıran, Hərbi Qənimətlər Parkına görə Azərbaycan xalqını təhqir edən, ”Əclaf Azərbaycan silahlı qüvvələri Dağlıq Qarabağın silahlı birləşmələrinə atəş açırlar”, ”Ermənistanın Paşinyanı sammitə dəvət olunmalıdır. Bunu deyən mənəm, azərbaycanlıyam...” deyən, Ermənistanın vəkilliyini edən Sevinc Osmanqızı bu gün açıq şəkildə deyir ki, ”Kaş ki, Prezidentimiz Paşinyan olardı”.

”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözləri yalnız öz dövlətinə və Vətəninə qarşı edilmiş xəyanət aktı deyil, eyni zamanda, üç minə yaxın şəhidimizə, 12 minə qədər qazimizə qarşı edilmiş mənəviyyatsızlıq deyilmi? Beş dəqiqəlik efir şöhrəti, qalmaqal və ”layk” naminə 3 min şəhid ailəsinin evindəki göz yaşlarına səbəb olmuş Paşinyanı özünə örnək hesab edən Osmanqızı kimilər artıq ”Vətənim Azərbaycan” sözlərini demək haqqını itirmiş satqınlardır.

Canlı efirdə izləyicilərin qarşısında bu sözlərin səsləndirilməsi heç şübhəsiz ki, bilavasitə ”xəyanətə hazıram” mesajının düşmənə ötürülməsi deməkdir. Siz deyin, ”Kaş ki, mənim rəhbərim erməni olaydı” deyənin özünü azərbaycanlı hesab etmək üçün mənəvi haqqı varmı? Məlum efirdən Ermənistanın Baş nazirinə rəğbət etiraflarından sonra aparıcı Sevinc Osmanqızı öz verilişlərini artıq yalnız erməni dilində aparmalı deyilmi?

”Osmanqızı tv” kanalında baş verənlər artıq sadəcə efir xuliqanlığı deyil, hətta bir cinayətdir. ”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözləri deyən şəxs insanları açıq şəkildə Vətənə qarşı casusluğa sövq edir. Heç şübhəsiz ki, damarlarında azərbaycanlı qanı axan insan mina xəritələrini alver predmetinə çevirən Ermənistanın Baş nazirini özünə nümunə və örnək saya bilməz. Mülki şəxslərin ölümünə və şikəst olmasına səbəb olan, mina xəritələrini verməyən rəsmi İrəvanın rəhbərliyini tərifləyən radikal müxalifət ”əcəb edib xəritələri verməyiblər” demiş kimi də olurlar. Bu mənada, ”Kaş ki, Prezidentimiz Paşinyan olardı” sözlərinin müəllifi xalqın uğur və sevinclərinə sevinməz, onu şad edən ancaq Ermənistanın cinayətləridir. Necə ki, Əli Kərimlinin qadın truppasının rəhbəri Dilarə Miriyeva ermənilərin mina terroru zamanı şəhid olmuş jurnalistlərimizə ”zurnalist” deyirdi, Qənimət Zahid isə Hərbi Qənimətlər Parkına ”Hərbi Cinayətlər Parkı” adı verirdi...

Erməni ideologiyasının daşıyıcılarından biri olan AXCP üzvü Məhəmməd Mirzəli isə Azərbaycanı Avropada ”Qarabağ” adı ilə təmsil edən futbol komandasına qarşı təxribat törədir və sonra da ”facebook” statusunda yazır ki, ”Qarabağ” futbol klubunu radikal islamçılar idarə edir və bu adamlar yeri gəlsə, stadionun ortasında başda kəsərlər, yəni bu qədər əclaf adamlardır”. Bu cür fikir bilirsinizmi kimlərin ritorikasıdır? Bu, İslam ölkələrinin, müsəlmanların timsalında radikalist, terrorçu obrazı formalaşdıran Qərb fundamentalistlərinin illərdir həyata keçirdiyi siyasi-ideoloji xəttin məhsuludur. İndi başa düşürsünüzmü ki, Əli Kərimlidən təlimatlar alan bu cəbhəçi Məhəmməd Mirzəli hansı dairələrə qulluq edir..?

Azərbaycandan qadın paltarından qaçmış, anasının erməni olması barədə sübutlar olan RATİ sədri Emin Hüseynov daha da irəli gedərək şəhidlərimizin qisasını almış, torpaqlarımızı işğaldan azad etmiş, hazırda da düşmənlə üz-üzə dayanan, sərhədlərimizi qoruyan ordumuzdan AŞPA-ya şikayət edib. Düşünün, özünə azərbaycanlı deyən kimsə, öz ordusundan düşmənlərə şikayət edərmi? Bu, açıq düşmənçilik, hətta erməniçilik deyilmi? Heç Ermənistan rəsmiləri bu qədər irəli gedə bilmirlər, amma özünə azərbaycanlı deyən bəzi ermənidən artıq ermənilər bu mənəviyyatsızlığı, düşmənçiliyi edirlər...

Göründüyü kimi, söz azadlığını mənəviyyatsızlıq ilə qarışdıran, 30 il ərzində torpaqlarımızı işğal etmiş və 1 milyona yaxın azərbaycanlının məcburi köçkün, qaçqın şəraitində yaşamasının səbəbkarı olan ölkənin rəhbərini özünə örnək seçmiş bu radikallar əslində Ermənistanın cinayətlərinə şərik çıxırlar, kollektiv Paşinyanlar uşaq qatillərinə sevgi etirafı edirlər. Bütün bunlara görə, 44 günlük Vətən müharibəsi zamanı Gəncə, Bərdə və Tərtərin ballistik raketlərlə bombalanması əmrini vermiş Paşinyanı özünə örnək seçmiş radikallar erməni cinayətkarları qədər məsuliyyət daşımalıdırlar. Onların ilk olaraq hökmünü də xalq verməlidir...

***Ramil Vəlibəyov,***
***YAP Nizami rayon təşkilatının sədri***

# Xankəndiyə getməyin yolu varmı?



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Bizi Qarabağa aparan yollardan biri də inamımız və ümidimiz oldu. Biz heç vaxt şübhə etmirdik ki, günlərin birində Azərbaycan ordusu Ali Baş Komandanının əmri ilə düşmən üzərinə yeriyəcək və torpaqlarımız yağının murdar tapdağından azad ediləcək. Artıq bu torpaqlarda dirçəldilmə işləri aparılır, Vətənin bizdən 30 il ayrı düşmüş hissəsi bizə geri qayıdıb, onun yaralanmış bağrının yaraları sarılır və...**

Və bu gün Vətənimizin elə hissəsi var ki, orada hələ də yağının murdar addımları atılmaqda davam edir. Söz yoxdur ki, bizim inamımız və ümidimiz oraya doğru da köklənib - Xankəndiyə və digər ətraf ərazilərə. Söhbət də budur ki, ötən gün mətbuatda Xankəndi istiqamətində dəmiryol xəttinin çəkilməsinin planlaşdırıldığı barədə layihələndirmə işlərinin aparıldığı bildirilib. Məhz bu faktorun özü də belə deməyə zəmin yaradır ki, inam və ümid mövcuddur, sadəcə qalır onun reallaşdırılmasına. Amma necə?

Çünki bildiyimiz kimi, Xankəndidə separatçı-quldur rejimin tör-töküntüləri qalmaqdadırlar və onların qalmaqları qalsın bir tərəfə, ardıcıl olaraq ərazi bütövlüyümüzə qarşı təxribatlar, terrorlar törədilir - istər fiziki, istərsə də mənəvi. Bunların qarşısının alınması üçün isə layihələrdən daha əvvəl atılması gözlənilən addımlar dayanır.

Söz yox ki, Xankəndiyə dəmir yolunun çəkilməsi böyük hadisə sayıla bilər, amma Xankəndiyə yol haradan keçir, tarixi şəhərimizə necə gediləcək? Bəllidir ki, müxtəlif situasiyalarda müxtəlif bəyanatlar verilə, ismarıclar göndərilə bilər, sadəcə bütün bunların 44 günlük müharibədə olduğu kimi praktiki icra etmək lazımdır. Yəni Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi və vətəndaşlarımızın ora rahat şəkildə gediş-gəlişinin təminatı deməkdir və bunun da həyata keçiriləcəyinə də kimsə şübhə etmir.

Amma hələ ki, bizlər Xankəndiyə gedən yolu axtarırıq, həmin yolu ki, tarixi şəhərimizə dəmir yolunun çəkilməsi və azərbaycanlıların gediş-gəlişlərinin bərpası üçün bölgədəki quldurlar üçtərəfli bəyanatda əks olunmuş bəndlərə əsasən tərksilah olunmalıdırlar, bu da olmazsa məhv edilməlidirlər, özü də birmənalı. Üstəlik, həmçinin bölgədəki ermənilər Azərbaycanın yurudusiyası altına keçməli, qanunlarına tabe olmalıdırlar. Gəlin, etiraf edək ki, əgər bu şərtlər reallaşmadan Xankəndiyə nə dəmir yolu çəkilə, nə də Azərbaycan vətəndaşlarının ora gediş-gəlişi təmin oluna bilər. Həqiqət acı olur, amma elə həqiqətlər də var ki, onu acıdan şirinə çevirmək mümkündür - Qarabağımızın azad olunduğu torpaqları kimi, bu şəhərimiz də azad olunacaq...

P.S. Hələlik, Şuşadan baxdığımız Xankəndiyə getməyin yolu isə çoxdan məlumdur...

# “Rusiya daha çox Ermənistana qıcıq olacaq”



”Dekabrın 15-də Brüsseldə Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində keçiriləcək tədbirdə Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında görüş olacağını artıq bilirik. Ermənistan Soçi görüşündən öncə Brüssel görüşünə daha çox can atırdı. Belə ki, onlar ATƏT-in Minsk qrupunu yenidən diriltmək və bölgədə yenidən ATƏT-in Minsk qrupunun fəaliyyətini aktivləşdirməklə ATƏT-in Ermənistana 28 il olduğu kimi yenə də, bu və ya digər xidmətlərindən istifadə etmək istəyir”.

Bunu SİA-ya açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib.

O, qeyd edib ki, buna görə də, təbii ki, Avropa görüşlərinə daha çox üstünlük verirdilər. Soçi görüşündən əvvəl noyabrın 9-da baş tutmalı görüşə Ermənistan tərəfi 2020-ci ilin bu günündə kapitulasiya aktına imza atdıqlarını, bu günün onlar üçün ağır olduğunu bəhanə gətirərək qatılmadı. Bu zaman Brüssel görüşü məsələsi gündəmə gəldi. Bundan qıcıqlanan Rusiya Prezidenti Vladimir Putin 26 noyabrda Ermənistanı Soçidəki görüşdə masaya oturmağa məcbur etdi və Rusiyanın mövqeyini Putin bəyan etdi. Sərhədlərin delimitasiya və demarkasiyası prosesinin Azərbaycan və Ermənistan dövləti tərəfindən yaradılmış komissiya və onların arasında vasitəçi kimi Rusiya tərəfindən həyata keçiriləcəyi bildirilib. Kommunikasiyalar və dəhliz açılacaq. Bu qərar hesab edirəm ki, Putin tərəfindən Paşinyan qarşısına qoyulan vəzifə kimi qiymətləndirilə bilər. Paşinyan əgər Soçi görüşündə razılaşdırılan qərardan imtina etməyə cəhd göstərəcəksə, Rusiya daha çox Ermənistana qıcıqlı olacaq.

Bu barədə Çingiz Qənizadə öz fikirlərini bildirib: ”Belə hesab edirəm ki, bölgədə hələlik yeganə təsir imkanına malik olan Rusiya sülhməramlıları vasitəsi ilə Ermənistan tərəfi üçün xoşagəlməz addımlar atılacaqdır. Ona görə də, deyə bilərəm ki, Paşinyan bu Brüssel görüşündə yenə də, hay-küy salacaq, yenə də, ATƏT-in Minsk qrupunun ölkəyə gəlməsini istəyəcək və Qarabağda qalmış 25 minə yaxın erməni əhali üçün müəyyən dırnaqarası status kimi hüquqlar tanınması üçün addımlara cəhd edəcək. Amma bunlar uğursuz cəhdlərdir. Brüssel görüşündə nə qədər Ermənistan və işğalçıya yaxın olan dövlətlərin təmsilçiləri var, üstəlik mən ATƏT-in Minsk qrupunu da Ermənistana yaxın qüvvə kimi görürəm. Amma mən belə edirəm ki, Rusiya 2021-ci ilin yanvarın 11-i imzalanan bəyanatla, 9 noyabrda imzalanan sənədlə və nəhayət Soçi bəyannaməsi ilə Ermənistanı başa saldı ki, sənədlərdə göstərilən qərarlardan qaçmaq olmaz”.

***Turqay Musayev***

# Yeni İl gəlir: Otellər doludur, bəs qiymətlər və xidmətlər necədir?

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Yeni ili bir çoxumuz həm də bayram endirimlərinə və kampaniyalarına görə səbirsizliklə gözləyirik. Çünki bayram ərəfəsində dünya ölkələrində bir çox mağazalar və markalar il boyu yüksək məbləğə satılmış məhsulları 50-70% endirimlə təklif edir. Bunlar geyimdən kosmetikaya, tur-paketlərdən restoran xidmətlərinədək bir çox sahəni əhatə edən aksiyalardır. Bu güzəştlərdən yararlanmaq üçün səyahət edənlər də var, onlayn alış-veriş edənlər də.***

Bütün ölkələrdə bayram ərəfəsində otellər bir-biri ilə yarışır, kim daha çox güzəşt tətbiq edəcək deyə, mağazalar yarışa girir, kim daha çox müştəri cəlb edəcək deyə. İstədik bu endirimlərin Azərbaycan versiyası ilə oxucularımızı tanış edək, daha dəqiq desək otellərin Yeni İl üçün endirim paketlərini araşdırdıq. Ölkəmizdə fəaliyyət göstərən bəzi otellərin Yeni İl üçün təyin etdiyi qiymətlər ilə bu yazımızda tanış ola bilərsiniz.

## Süit 3 min, villa 4 min civarında

"Quba Palace"da yeni il əyləncələrinə qatılmaq istəsəniz və bu əyləncəni 31 dekabr-2 yanvar aralığında yaşamaq istəsəniz dağ mənzərəli otağa 2 nəfər üçün 1550 AZN, göl mənzərəli otaq üçün isə 1650 AZN ödəməlisiniz. 2 nəfərlik "junior suite" 1750 AZN, "honeymoon suite"- 1850 AZN edəcək. 4 nəfərlik bir ailəsinizsə "family suite" 3250 AZN ödəməlisiniz. "Manna villa" (2 nəfərlik) - 1850 AZN, "Midiya villa" (6 nəfərlik) - 5950 AZN, "Urmiya" villa (8 nəfərlik) - 6950 AZN, "Atropatena" villa (8 nəfərlik) - 6950 AZN edir. Qiymətlərə 31 dekabr günorta yeməyi və "Xüsusi Şam yeməyi", 1 yanvar tarixində səhər yeməyi və şam yeməyi, 2 yanvar tarixində səhər yeməyi daxildir. Oteldən bildirdilər ki, bayram günlərindəki sıxlıqdan asılı olaraq son otaqlar üçün otaq qiymətini dəyişmək hüququna malikdirlər. Yəni axırıncı otaqları istədikləri qiymətə təklif edə bilərlər.

## 3 gecəyə 8 min manat

"Chenot Palace Health Wellness Hotel"in fantastik qiymətləri barədə də yəqin ki məlumatlısınız. Otel Qəbələdə Nohur gölü ətrafında yerləşir. 29 dekabr-1 yanvar tarixlərində bu oteldə qalmaq istəyənlər 3 gecə üçün 2 nəfərlik otağa 8 001 manat ödəməli olacaq.

1300 manata 3 günlük qonaq

"Shamakhi Palace Sharadil Hotel"in təklif etdiyi Yeni il paketi 2 nəfərlik təyin edilib. 31-2 tarixlərində bu oteldə qalmaq istəyənlər üçün təklif edilən qiymətlər: "Garden view" - 1280 AZN, "Pool view" - 1360 AZN. Qiymətlərə gün ərzində 3 dəfə qidalanma, gündəlik əyləncə proqramları və Spa xidmətləri daxildir.

Şahdağın "Park Chalet" hotelindən 31 Dekabr - 3 Yanvar ərəfəsi üçün təqdim edilən 3 gecəlik qiymət 1 nəfər üçün 1250 AZN-dir. Bu təklif yalnız 3 gecəlik rezervasiyaya şamil olunur. Qiymət iki nəfərlik otaqda bir nəfərin yerləşməsi üçün hesablanıb. Rezervasiya ləğv edilsə, ödəniş geri qaytarılmır. Qiymətə yalnız səhər yeməyi və GALA gecəsi daxildir.

Şabrandakı "Qalaaltı Hotel 5*"da eyni tarixdə qalmaq istəsəniz ikinəfərlik otaqda bir nəfər üçün bizə təqdim edilən qiymətləri nəzərdən keçirin: "Treehouse" binası-525 AZN, əsas bina- 575 AZN. Bu qiymətə 3 dəfə qidalanma, Yeni il şam yeməyi, fitnes və spa xidmətləri daxildir.

## 150-250 manat arası da təkliflər var idi, amma...

"Rıver Inn Resort & Spa Hotel"in Yeni il təklifi 3 gün 2 gecəlikdir. 31 dekabr üçün qonaqlara nahar yeməyi, Qala gecəsi, şam yeməyi, şou proqram təklif edilir. 1 yanvar tarixində 3 dəfə qidalanma, gecə əyləncə proqramının davamı, 2 yanvarda yalnız səhər yeməyi vəd edilir. Bütün yerlər tutulub.

"Qafqaz Tufandag Mountain Resort Hotel" Böyük Qafqaz dağlarının qoynunda, Tufandağ Qış-Yay turizm kompleksinin mərkəzində yerləşən oteldir. Oteldə 2 nəfərlik Yeni il qiymətləri 29-30 dekabr üçün 245 AZN tələb edilir. Oteldən bildirirlər ki 31 dekabrdan 5 yanvara qədər təklif edilən bütün yerlər dolub.

"Ağsaray Deluxe Hotel & Spa 5* 30 dekabr - 1 yanvar tarixlərində 1 gecə 2 gün üçün 1 nəfərə 150 AZN tələb edir. Qiymətə səhər yeməyi, Qala şam yeməyi, spa xidmətləri daxildir. Bütün yerlər tutulub.

## Turizm Agentliyi: Biz qiymətlərə baxmırıq

Baha qiymətlərə baxmayaraq müştərilərə güzəştlər yoxdur. Əgər hər hansı bir üzrlü səbəbdən rezervasiyanı ləğv etmək niyyətinə düşsəniz pulunuz geri qaytarılmayacaq. Bu tələb demək olar ki, bütün otellərin şərtlərində irəli sürülüb.

Məlum olduğu kimi otellərdəki qiymətlər tamamilə fərqli olmaqla yanaşı qiymətə daxil olan xidmətlərdə də fərqlər mövcuddur. Bəzən eyni şəraitə malik, eyni xidmətlər təklif edən otellər arasında qiymət fərqi çox yüksəkdir.

Dövlət Turizm Agentliyindən isə bildirilir ki, Agentlik qiymətlərin formalaşdırılması prosesində iştirak etmir: "Bazar iqtisadiyyatında qiymətlər özəl şirkətlər tərəfindən müəyyənləşdirilir. Biz dövlət orqanı olaraq buna müdaxilə etmirik. Əlbəttə, tövsiyələrimiz var ki, qiymətlər daha münasib olmalıdır, bütün büdcələrə uyğun olmalıdır. Hamı istər ki, qiymətlər daha əlverişli olsun. Ancaq buna inzibati qaydada müdaxilə edə bilmərik. Bizim əsas vəzifəmiz sağlam rəqabət mühiti yaratmaqdır".

## Turizm iqtisadi inkişafa təkan verən sahələrdəndir

Beləliklə, dövlətin turizm siyasətinə və turizmə dəstəyinə baxmayaraq bəziləri yalnız qısa vaxtda çoxlu gəlir əldə etmək naminə ölkə turizmini xarici turistlər üçün sərfəsiz göstərir. Bəzi otellərin "sağlam rəqabət" anlayışı yerlər boş olduğu halda dolu olduğunu iddia edib süni bahalıq yaratmaqdan ibarətdir. Halbuki, otel və istirahət mərkəzləri fürsətkarlıq etmək əvəzinə strateji siyasət yürütsələr daimi turist axını əldə edə bilərlər. Nəticədə həm ölkəmiz turizmdən qazanar, həm də turizm müəssisələri özləri. İndiki qiymətlərlə isə, onlar turistlər qonşu ölkələrə yönəldirlər.

Azərbaycanda turizm sektorundan əldə edilən gəliri bir neçə dəfə artırmaq üçün potensial var. Bunun üçün xidmətin səviyyəsini yüksəltməklə yanaşı, həm də qiymətləri əhalinin orta təbəqəsinin gəlirinə uyğunlaşdırmaq lazımdır. Dövlət turizm sektorunun inkişafı üçün mümkün olan hər şeyi edir. Bu siyasətə özəl sektor da dəstək verməlidir-keyfiyyətli xidmət və normal qiymətlə.

Turizm inkişaf etdikdə, bütövlükdə xidmət sektoru inkişaf edəcək. Bu sahə bəzi inkişaf etmiş ölkələrin ÜDM-in yarısına qədər qalxır. Hesablamalara görə, turizm sektoru 60-dan çox iqtisadiyyat sahəsinin inkişafına müsbət təsir edir. Ölkəyə gələn turistlərdən həm aqrar sektor, həm yüngül sənaye, həm xidmət sektoru, həm maliyyə-bank-sığorta sistemi, həm nəqliyyat, həm rabitə, həm səhiyyə sektoru qazanır.

Unutmaq lazım deyil ki, turizmə təkcə maddi gəlir qaynağı kimi baxmaq düzgün deyil. Söhbət həm də ölkəmizin tanınmasından, haqq səsimizin beynəlxalq aləmə çatdırılmasından gedir. Müxtəlif ölkələrdən gələn qonaqların ölkəmizin təbiəti, xalqımızın mədəniyyəti, dövlətimizin inkişafı haqda dolğun məlumat əldə etməsi Azərbaycanın dünyada nüfuzunun artması üçün əsas rollardan birini oynaya bilər.



ARAŞDIRMA

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
14 dekabr
2021-ci il

# Emin Mahmudov ilin ən yaxşı futbolçusu seçilib



**Azərbaycanda ilin ən yaxşı futbolçusu bəlli olub. ”Report”un məlumatına görə, bu, İdman Araşdırmalar Mərkəzinin ”İlin Qalibləri-2021” layihəsində jurnalistlər arasında keçirdiyi sorğuya əsasən bəlli olub.**

Azərbaycan millisinin və ”Neftçi” klubunun futbolçusu Emin Mahmudov 36 səslə bütün rəqiblərini qabaqlayıb. Polşa ”Legiya”sında çıxış edən yığmanın digər üzvü Mahir Emreli 16 səslə ikinci olub. ”Qarabağ”dan Filip Ozobiç, Qara Qarayev və Şahruddin Məhəmmədiyev hərəyə 1 səs toplayıblar.

Emin Mahmudov İAM-ın sorğusuna əsasən, Azərbaycan Premyer Liqasında 2018/2019 mövsümünün futbolçusu seçilmişdi.

Qeyd edək ki, ”İlin Qalibləri-2021” layihəsinin baş sponsoru ”Azfar Group”, sponsoru Azərbaycanın ilk idman geyimi brendi ”Il`Azero”, informasiya dəstəkçisi ”Report”, təşkilati dəstəkçisi Bakı Olimpiya Stadionudur.


## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtadaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Gecə pis yatanlar mütləq oxusun

ScienceDayli xəbər verir ki, Kolumbiya Universitetinin alimləri yuxu ilə bağlı olan çox maraqlı araşdırmalar aparıblar. Alimlər yuxunun insanın qidalanması ilə əlaqəsini öyrəniblər. Araşdırmada 30-a yaxın orta yaşlarda olan insanlar iştirak ediblər.

Araşdırmalar nəticəsində məlum olub ki, çoxlu miqdarda qidalı liflərlə zəngin olan qidaları (meyvə, tərəvəz, göyərti və s.) qəbul edən insanların gecə yuxusu daha yaxşı olur - onlar daha tez yuxuya gedir, daha rahat yatırlar. Əksinə qidalanmasında az qidalı liflər və çoxlu yağlar və şəkər olan insanlar daha pis və narahat yatır, gecə tez-tez oyanırdılar.

Alimlərin fikirinə görə, qidalanmada müəyyən dəyişikliklər etməklə yuxunu tənzimək mümkündür. Bunun üçün qidalanmaya daha çox meyvə-tərəvəz əlavə etmək, yağlı və şirin qidaların miqdarını azaltmaq lazımdır.



# Qanda xolesterini aşağı salan iki məhsulun adı açıqlanıb

Amerika Kardiologiya Assosiasiyasının mütəxəssisləri bildiriblər ki, insanın sağlam olması üçün xolesterinə ehtiyacı var, lakin bu maddənin normadan artıq olmağı orqanizm üçün ciddi fəsadlara səbəb ola bilər.

SİA xəbər verir ki, ekspertlər balığın və sarımsağın qanda xolesterini aşağı salmağa köməklik etdiyini bildiriblər. Qeyd olunur ki, balıq ”yaxşı” xolesterini yüksəldən və ”pis” xolesterini azaldan, ürək üçün çox faydalı olan omega-3 yağlı turşuları ilə zəngindir.

Sarımsaqda isə C və B6 vitamini, həmçinin marqans və selen kimi elementlər var. Bundan əlavə, kardioloqlar qanda xolesterinin normallaşması üçün gündəlik rasionu dəyişməyi, daha aktiv həyat tərzi sürməyə başlamağı və siqaretdən imtina etməyi tövsiyə edir.






*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**